RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 239 (8262) BAZAR, 27 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Qlobal sülh missiyasının təminatı İLHAM ƏLİYEVə həvalə olundu

Sivilizasiyalararası əməkdaşlığın mühüm platformasına çevrilən Azərbaycan dünyanın siyasi tarixində yeni səhifə açaraq daha bir ilkə imza atdı. 120 əsas, 17 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən, BMT-dən sonra ikinci ən böyük siyasi dialoq platforması olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyi edən Azərbaycan müstəqillik tarixində ən böyük beynəlxalq siyasi tədbirlərdən birini gerçəkləşdirmiş oldu.

## Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün ciddi səylər göstərəcək, dayanıqlı inkişafa və ədalətin təmin olunmasına mühüm töhfələr verəcək

### 30 il sonra yenidən Avropa qitəsində, məhz Azərbaycanda...

Oktyabrın 25-də, 58 il öncə - 1961-ci ildə Serbiyanın paytaxtı Belqradda yaradılmış təşkilata sədrlik Azərbaycana keçdi. Elə təşkilatın Avropa qitəsində keçirdiyi sonuncu toplantı da 1989-cu ildə Serbiyanın paytaxtı Belqradda baş tutmuşdu.

Elə bu səbəbdən də yarım əsrdən çoxdur bəşəri dəyərlərin təbliği ilə məşğul olan və dünyanın ən böyük təşkilatlarından biri sayılan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Azərbaycanda keçirilməsinin böyük rəmzi mənası da var. Çünki həmin sammitdən 30 il sonra Qoşulmama Hərəkatında iştirak edən ölkələrin dövlət və hökumət başçıları Avropa qitəsində, məhz Odlar Yurdunda yenidən bir araya gəldilər.

Öncə onu vurğulayaq ki, Azərbaycanda Qoşulmama Hərəkatına maraq ilk olaraq Ümummilli Lider Heydər Əliyevin dövründə yaranıb və 1994-cü ildə ölkəmiz hərəkata müşahidəçi üzv olub. 2011-ci ildən isə Azərbaycan Qoşulmama Hərəkatının tamhüquqlu üzvü seçilib. Cəmi 8 il sonra təşkilatın çox mühüm Zirvə Görüşünə evsahibliyi etməsi isə Azərbaycanın bu qurumun ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Ölkəmizin dünyanın yarıdan çox dövlətinin təmsil olunduğu beynəlxalq tədbirə evsahibliyi etməsi, şübhəsiz ki, Azərbaycanın xarici siyasətinin Qoşulmama Hərəkatının prinsipləri ilə uyğunluğunun, eyni zamanda artan beynəlxalq nüfuzunun əyani təzahürüdür.

60-a yaxın ölkənin dövlət və hökumət başçılarının, 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi XVIII Zirvə Görüşündə çıxış edən Prezident İlham Əliyev bunu dəyərləndirərkən vurğuladı ki, təşkilata sədrliyin Azərbaycana həvalə olunması ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür.

Əlbəttə ki, bu qərar dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının cənab İlham Əliyevin tam müstəqil, qətiyyətli siyasətinə verdiyi dəstək kimi qiymətləndirilməlidir. Bu, həm də Azərbaycanın dünyanın bir çox inkişaf etmiş ölkələri ilə eyni platformada yer aldığını təsdiqləyən reallıqdır.

### BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur

Cənab İlham Əliyev bəyan etdi ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq, öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcək. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri ölkəmizin xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür: “Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir”.

Təşkilatın sədri hesab edir ki, ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirilməlidir. 2005-ci ildən etibarən Azərbaycanın 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərdiyini xatırladan Prezident dedi ki, Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir.

Ardı 4-cü səh.

# Əfqanıstanın Azərbaycanla bağlı prinsipial mövqeyi var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Əfqanıstan Prezidentini qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin və Prezident Məhəmməd Əşrəf Qaninin görüşü oldu.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Cənab Prezident, bir daha xoş gəlmisiniz. Dünən biz sammit iştirakçılarının çox mühüm görüşünü keçirdik. Bu günlərdə bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirik.

Ardı 2-ci səh.

# Azərbaycan və Malayziya siyasi əlaqələri gücləndirmək niyyətindədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Malayziyanın Baş Nazirini qarşıladı.

Azərbaycan Prezidenti və Malayziyanın Baş Naziri birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin və Baş Nazir Mahathir Bin Mohamadın görüşü oldu.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Cənab Baş Nazir, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi bir daha görməyimə çox şadam.

Ardı 2-ci səh.

# İslahatların intellektual mərhələsi başlayır

## İlham ƏLİYEV: “Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik?”

**Prezident İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə bir daha ölkədə aparılan islahatların yüksələn xətlə və daha dolğun inkişaf edəcəyini, kadr islahatlarının bütün ciddiliyi ilə aparılacağını vurğulamışdır. Ölkədə son 15 ildə reallaşdırılan islahatların dünyanın diqqət mərkəzində olduğu, Azərbaycanın nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında birinci yerləri tutduğu halda, əlbəttə ki, qazanılan nailiyyətlərlə kifayətlənmək yetərli ola bilərdi.**

Xəbər verildiyi kimi, “Doing Business” hesabatında iqtisadi islahatlar baxımından Azərbaycanın biznes mühitinə görə dünya miqyasında 25-ci yerə yüksəldiyini bəyan etmişdir. Bu mötəbər qurum Azərbaycanın adını yenə də hesabatında 20 ən islahatçı ölkənin sırasında çəkmişdir. Bu göstəricilər özlüyündə müharibə vəziyyətində yaşayan ölkənin inanılmaz uğurlara nail olduğunu təsdiq edir. Davos Ümumdünya İqtisadi Forumu yeni hesabatında isə ölkəmizdə aparılan islahatların ardıcıl xarakter daşıdığını bildirmişdir. Dövlət başçısı çıxışında bu hesabatdan irəli gələn bəzi məqamlara diqqət yetirmişdir. Azərbaycanın mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə dünyada 18-ci yerdə, polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə 30-cu yerdə, mülkiyyət hüquqlarının qorunması sahəsində 37-ci yerdə, dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə 10-cu yerdə olmasını vurğulayan dövlət başçısı dedi: “Bu, onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir. Rəhbərliyin dəyişikliklərə, yeni islahatlara meyillilik səviyyəsinə görə biz dünyada 5-ci yerdəyik. Nəqliyyat infrastrukturuna görə 31-ci yerdəyik.

Ardı 7-ci səh.



# İqtisadiyyatın şaxələndirilməsi daha sürətlə davam etməlidir

## Bu, Prezidentin iqtisadi müşavirədəki qəti tələbidir

Azərbaycan dövləti uzaqgörən iqtisadi siyasət yürüdərək neftdən əldən olunan gəlirləri qeyri-neft sektorunun inkişafına yönəltdi. Bu il oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə bir daha qeyd edildi ki, şaxələndirmə ilə bağlı tədbirlər öz müsbət nəticəsini verir. Cari ilin doqquz ayında qeyri-neft sektorunda iqtisadi artımın 3 faizdən çox olması da bunu göstərir.

Sözügedən müşavirədə dövlət başçısı bu barədə demişdir: “Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb.

Ardı 7-ci səh.

# “Doing Business” Azərbaycanın ən islahatçı ölkələrdən olmasını bir daha təsdiqlədi

Azərbaycanın iqtisadi uğurlarını illərdir ki, dünyanın aparıcı reytinq agentlikləri etiraf edir və artıq bu, bizim üçün adi haldır, qanunauyğunluqdur. Əslində idmanda rekordları aramsız təzələmək nə qədər çətindirsə, iqtisadiyyatın müxtəlif sahələrində aramsız nailiyyətlərlə gündəmdə qalmaq, beynəlxalq əhəmiyyətli sorğu agentliklərinin hesabatlarında liderliyi qorumaq ondan da çətindir.




Amma bütün bunlara baxmayaraq, Dünya Bankı “Doing Business 2020” hesabatına görə Azərbaycanı ikinci ildir ki, 20 ən islahatçı ölkədən biri elan edir. Bu imkanlar necə əldə edilir, onların mənbələri haradır? Bu suala cavab tapmaq üçün uzağa getmək lazım deyil. Yalnız son günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə start verdiyi yeni kadr islahatlarına, vəzifəsindən istefaya gedən və yeni təyinatlar alan yüksək çinli dövlət məmurları ilə apardığı söhbətləri, bu danışıqların islahatçı məzmununu ötəri də olsa nəzərdən keçirəndə dərk edirsən ki, dövlət baçısının apardığı islahatlar tükənməyəcək. Ona görə ki, hayata keçirilən bütün yeniliklərin ardıcıl və sistemli inkişaf konsepsiyası mövcuddur.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin analitiki Nərmin Kazımlı qeyd edir ki, Azərbaycandan başqa ilk 25-likdə olan heç bir ölkə top-20 siyahısına daxil edilməyib. Bunun səbəbi odur ki, qeyd etdiyimiz kimi, həqiqətən də etalona yaxınlaşdıqca ən çox islahat aparan ölkə statusunu qorumaq da çətinləşir. “Doing Business 2020” hesabatında Azərbaycan 190 ölkənin arasında 34-cü mövqedə qərarlaşıb.

Ardı 7-ci səh.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü

## Əfqanıstanın Azərbaycanla bağlı prinsipial mövqeyi var



*Əvvəli 1-ci səh.*

Əfqanıstanın sammitdə mümkün olan ən yüksək səviyyədə iştirakı Sizin bu quruma verdiyiniz əhəmiyyəti əks etdirir və biz bunu həm də Azərbaycana münasibətdə dostluq və tərəfdaşlığın göstəricisi hesab edirik. Biz dost, qardaş ölkələrik. Biz Sizinlə dəfələrlə beynəlxalq tədbirlər zamanı Bakıda görüşmüşük. Sonuncu dəfə bu ilin martında çox yaxşı görüşümüz oldu və sənəd imzalandı. Ölkələrimiz arasındakı əlaqələrin inkişafından məmnunam. Ən mühümü isə odur ki, biz razılaşdırdığımız bütün məsələləri həyata keçirməyə çalışırıq. Düşünürəm ki, ikitərəfli əlaqələrdə, siyasi təmasların gücləndirilməsində çox böyük irəliləyişə nail olmuşuq. Azərbaycanın ölkənizdə sülhməramlı inkişafı dəstəkləmək səyləri Sizə məlumdur. Bildiyiniz kimi, biz Əfqanıstandakı hərbçilərimizin sayını artırmışıq. Sizin ölkənizdə təhlükəsizlik, sabitlik və tərəqqi bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki dost və qardaş olaraq biz sizin bütün islahatlarınızın, planlarınızın həyata keçirilməsini görmək istəyirik. Mən bir dəfə Sizə söyləmişdim ki, Siz bu mühüm vəzifəyə gələndən bizim əlaqələrimiz çox səmərəli tərəfdaşlığa çevrilib. Bizim mütəmadi görüşlərimiz və müzakirələrimiz, qəbul edilmiş qərarlar, bu qərarların icrası qarşılıqlı siyasi iradəni nümayiş etdirir. Əvvəlki görüşlərimizdən birində müzakirə etdiyimiz kimi, biz dəmir yollarımızı və nəqliyyat qurğularını birləşdirmək istəyirdik və bunu etdik. Biz artıq Lapis-Lazuli layihəsindən Azərbaycan vasitəsilə yükləri qəbul etmişik. Beləliklə, biz bu məsələlər üzərində işləməyə davam edəcəyik. O vaxtdan biz Mərkəzi Asiyadakı dostlarımız və qonşularımızla da çox fəal şəkildə əməkdaşlıq edirik. Belə ki, Mərkəzi Asiyadan Azərbaycan vasitəsilə daşınan yükün həcmi artır. Hazırda Əfqanıstan, Azərbaycan və Avropa arasında fiziki bağlantı var. Hazırda bizim yeni bağlantımız var, düşünürəm ki, bu, tarixi nailiyyətdir. Bu gün biz qarşılıqlı maraq kəsb edən bəzi başqa məsələləri də müzakirə edəcəyik. Bir daha xoş gəlmisiniz və bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirik.

Əfqanıstan Prezidenti **Məhəmməd Əşrəf QANİ** dedi:

- Sizinlə görüşməkdən məmnunluq hissi keçirirəm, Sizi təbrik edirəm. Qoşulmama Hərəkatına sədrliyin Azərbaycan tərəfindən qəbul olunması hesab edirəm ki, Sizi və qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ münaqişəsinin həllinə bir addım daha yaxınlaşdırır. Əfqanıstanın Azərbaycanla bağlı prinsipial mövqeyini nəzərə alaraq bizdən nəsə tələb olunarsa tərəddüd etmədən bunu bizə bildirin. Biz İnsan Hüquqları üzrə Komissiyanın tərkibinə daxilik və əlaqələndirmə ilə bağlı hər hansı bir xüsusi zərurət yaranarsa, mən bizim səfirimizə sizin səfirinizlə çox yaxından koordinasiya etmək tapşırığını verə bilərəm. Hesab edirəm ki, bu cür beynəlxalq tədbirlərə evsahibliyi etmək strategiyanızla hər gün daha çox insanları bunun faydalı olduğuna inandırırsınız. İkitərəfli əlaqələrimizə gəldikdə, onların səviyyəsi bizi çox sevindirir. Bu, - mən bunu həmişə deyirəm, - Sizin Çikaqodakı çıxışınızdan başladı. O vaxt bu, arzu idi, lakin indi bu, həyata keçirilib. Lapis-Lazuli dəhlizi bizim üçün çox böyük əhəmiyyətə malikdir. Biz Bakıdan liman kimi necə istifadə olunması məsələsini daha çox müzakirə etmək istəyirik. İslahatların aparılması, ya da indi etibarlı dəmir yolu dəhlizimizin olması bizim üçün çox vacib hadisədir. Eyni ilə biz dəhlizi genişləndirmək istəyirik. Biz bu dəhlizin genişləndirilməsi üçün ciddi bir proqram hazırlamışıq və Bakının bir daha mərkəzi qovşaq kimi burada bizə xidmət etməsi bizim üçün böyük maraq kəsb edir. Bakıda əfqan məhsullarının ilk sərgisi keçirilib və biz Ticarət Nazirliyi ilə daha yaxından əməkdaşlıq etmək istəyirik ki, bazar təhlili aparılsın və bizim komanda bazar təhlili üzərində çalışa bilsin. Bu potensial sahələrdən biri tikinti materiallarıdır.

## Azərbaycan və Malayziya siyasi əlaqələri gücləndirmək niyyətindədir

*Əvvəli 1-ci səh.*

Çox minnətdaram ki, sammitdə iştirak edirsiniz. Bu, Malayziyanın mühüm beynəlxalq tədbirə böyük əhəmiyyət verdiyini nümayiş etdirir və ölkəniz mümkün olan ən yüksək səviyyədə təmsil olunub. Dünəndən biz Qoşulmama Hərəkatına sədrliyi qəbul etmişik. Sammitdə çıxışım zamanı dediyim kimi, Azərbaycan ölkənin prioritetləri, siyasəti, o cümlədən xarici siyasət prioritetlərinə tam uyğun olan Bandunq prinsiplərinə sadiq olacaq. Suverenlik, ərazi bütövlüyü, müstəqillik, bir-birinin işlərinə qarışmamaq bizim xarici siyasət gündəliyimizin əsas xəttidir. Düşünürəm ki, bu amil sayəsində, həmçinin Azərbaycanın milli maraqlara əsaslanan müstəqil xarici siyasət yürütməsi sayəsində biz Qoşulmama Hərəkatında yekdil dəstək əldə etmişik. Biz yekdil qərarla sədr seçilməyimizi böyük şərəf hesab edirik. Bu, onu nümayiş etdirir ki, ölkəmizin yürütdüyü siyasət beynəlxalq ictimaiyyət üzvlərinin mütləq əksəriyyəti tərəfindən dəstəklənir. Bu, onu göstərir ki, təşkilatda olduğumuz qısa zamanda öz mövqeyimizi nümayiş etdirə bilmişik. Sədr olaraq biz bütün üzv dövlətlərin legitim hüquqlarını müdafiə edəcəyik. Biz bəzi üzv dövlətlər arasında gərginliyin azaldılmasında ölkələrə uyğun gələn şəkildə rol oynamağa çalışacağıq. Qoşulmama Hərəkatında birliyi, qarşılıqlı dəstəyi, siyasi dəstəyi gücləndirməyə ehtiyac var. Biz mütləq iqtisadi əməkdaşlıq məsələsi ilə məşğul olacağıq. Çünki biz bir-birimizə kömək etməliyik, ticarət mübadiləsini genişləndirməliyik, hazırda başqa yerlərdən aldığımız məhsulları üzv dövlətlərdən almalıyıq. Bildiyiniz kimi, biz Gənclər Sammiti təşəbbüsü ilə çıxış etmişik. Bir çox üzv ölkələrdə əhalinin, o cümlədən gənclərin sayı artır, onların məşğulluğu, cəmiyyətə inteqrasiyası, ənənəvi dəyərlərə sadiqliyi ən mühüm məsələlərdir. Biz Azərbaycanda



gənclərimizin vətənə sadiq, vətənpərvər olmasına, milli ruhda yetişdirilməsinə, hər cür xarici təsirdən azad olmasına və gələcək nəslin milli maraqları bizim kimi qorumasını təmin etməyə çox böyük əhəmiyyət veririk. Bizim sədr olaraq qarşıdakı üç il üçün həqiqətən də geniş gündəliyimiz var. Biz sizin şəxsi dəstəyinizə və məsləhətinizə güvənirik. Biz sizi dünya miqyasında ən görkəmli siyasətçilərdən biri kimi tanıyırıq. Sizi “Malayziya möcüzəsi”nin müəllifi kimi tanıyırıq. Mən bilirəm ki, bir çox ölkələr sizin dəyişikliklərlə bağlı təcrübənizi öyrənib və siz hər zaman ədaləti müdafiə etmisiniz. Sizin dünənki çıxışınızda yenə də mövqe var idi, baxış var idi, qlobal gündəlikdə olan mühüm məsələlərə açıq yanaşma var idi. Əlbəttə ki, biz ölkələrimiz arasındakı çox sıx dostluq əlaqələrini, siyasi əlaqələri gücləndirmək istəyirik. Bizim artıq enerji sektorunda çox yaxşı əməkdaşlığımız var. “Petronas” şirkəti Azərbaycana sərmayə yatırır və biz əməkdaşlığı genişləndirmək, hər iki ölkədən turistlərin sayını artırmaq, daha çox mədəni tədbirlər keçirmək istəyirik. Bir sözlə, biz ölkələri yaxınlaşdırmaq üçün səy göstərmək istəyirik. Bir daha Azərbaycana xoş gəlmisiniz.

Malayziyanın Baş Naziri **Mahathir Bin MOHAMAD** dedi:

- Mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkür edirəm. İlk səfərimdən sonra həmişə bir daha buraya gəlmək istəmişəm, lakin Baş Nazir olaraq vəzifəmi tərk etdim. O vaxtdan bəri başqa ölkələrə səfərlərimi əsasən azaltdım, lakin hakimiyyətə bir daha qayıtdıqdan sonra adət etdiyimdən daha çox səfərlər etməliyəm. Qoşulmama Hərəkatının Sammitinin burada baş tutacağını öyrənəndə səbirsizliklə yenidən Azərbaycana gəlməyi gözləyirdim. Əlaqələrimiz yaxşıdır. Əlbəttə ki, əlaqələrimiz çox yaxın deyil, çünki Malayziyada Azərbaycan haqqında çox şeyi bilmirik. Bakı haqqında bilirik, lakin Azərbaycan haqqında o qədər də məlumatlı deyilik. Düşünürəm ki, Azərbaycan haqqında tarixən maraqlı şeylər var və bu, bir çox ölkələri buraya cəlb edəcək. Xüsusilə Həcc ziyarətini etdikdə biz geri qayıtdıqda buraya gələ bilərik.

Biz, əlbəttə ki, bütün məsələlərdə neytralıq. Hamı ilə dost olmaq istəyirik. Heç bir dövlətin daxili sistemi və ya ideologiyası bizi maraqlandırmır. Çünki Malayziya ticarət ölkəsidir. Onun inkişafı ticarətdən asılıdır və beləliklə, biz həmişə bazarlarla dost olmalıyıq. Hər ölkəni də məhsullarımız üçün bir bazar olaraq görürük. Bu gün biz demək olar ki, 190 ölkə ilə ticarət aparırıq, praktik olaraq hər bir ölkə ilə bizim biznesin aparılması ilə bağlı müəyyən münasibətlərimiz var. Hətta Azərbaycanda da qalmaq üçün bir sıra əlaqələrimiz var. Bəziləri, əlbəttə ki, neft sahəsindədir. Ümid edirik ki, Sizin rəhbərliyinizlə Qoşulmama Hərəkatı başladığı ideologiyanı canlandıracaq. Çünki o zaman bu, böyük hərəkat idi. Soyuq müharibə dövründə iki rəqib arasında bir üçüncü güc olmalı idi və bu güc də əsasən İndoneziyanın Prezidenti Sukarno tərəfindən yaradıldı. Qoşulmama Hərəkatı BMT-dən sonra ən böyük beynəlxalq təşkilata çevrildi. Biz bu hərəkatın fəaliyyətini davam etdirməsini təmin etməliyik, çünki birlikdə biz bir çox şeyləri edə bilərik. İnanırıq ki, ticarət və kommersiya ilə biz ölkələrimizi inkişaf etdirə biləcəyik.

## Əlcəzair Azərbaycanla ikitərəfli münasibətlərin inkişafında maraqlıdır

**Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelkader Bensalah ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Əlcəzair Prezidentini qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin və Prezident Abdelkader Bensalahın görüşü oldu.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Mən çox şadam ki, ölkəniz sammitdə mümkün ən yüksək səviyyədə təmsil olunur. Azərbaycanın Qoşulmama Hərəkatının sədrliyinə namizədliyini dəstəklədiyinizə görə təşəkkür edirəm. Bildiyiniz kimi, biz bütün üzv dövlətlərin yekdil qərarı ilə sədr seçilmişik. Biz bunu siyasətimizə olan güclü dəstək və əməkdaşlığımızın yaxşı göstəricisi hesab edirik. Qoşulmama Hərəkatının sədri olaraq biz ölkələr arasında həmrəyliyi gücləndirmək üçün əlimizdən gələni edəcək və lazım gələrsə, konkret problemlərin həllinə yardım üçün səy göstərəcəyik. Əlbəttə ki, bu, ikitərəfli əlaqələrimizlə bağlı məsələləri müzakirə etmək üçün yaxşı imkandır.

Sizin Azərbaycana səfəriniz tarixi əhəmiyyət kəsb edir. Çünki diplomatik əlaqələrimiz ərzində ilk dəfədir ki, Əlcəzair Prezidenti



Azərbaycana səfər edir. Sözsüz ki, bu səfər hər iki ölkə üçün xüsusi məna kəsb edir. Biz ölkələrimiz arasında olan çox fəal siyasi dialoqu nümayiş etdiririk. İslam Əməkdaşlıq Təşkilatında ölkəniz Ermənistanla münaqişədə bizi dəstəkləyir. Ona görə də biz BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və əlbəttə ki, Qoşulmama Hərəkatında qarşılıqlı dəstəyi davam etdirəcəyik. Mən, həmçinin düşünürəm ki, hazırda iqtisadi əməkdaşlıq məsələlərini, xüsusilə ticarət dövriyyəsinin artırılması yollarını müzakirə etmək üçün yaxşı vaxtdır. Bir daha xoş gəlmisiniz.

Əlcəzair Prezidenti **Abdelkader BENSALAH** dedi:

- Zati-aliləri, təşəkkür edirəm. İcazə verin, sammitdə iştirak etmək və onun uğuruna töhfə vermək üçün dəvətə görə minnətdarlığımı bildirim. Mən təşkilatımıza sədrliyiniz münasibətilə Sizi təbrik etmək istərdim. İcazənizlə bildirim ki, biz bu mühüm sammit nəticəsində qəbul olunacaq qərar və tövsiyələrin mətninin tərcüməsi və dəqiqləşdirilməsi üçün Sizin qulluğunuzdayıq. Sammitin çox yaxşı və uğurlu təşkili münasibətilə Sizi təbrik etmək istərdim. Bizim münasibətlərə gəldikdə, mən ikitərəfli münasibətlərin inkişafına hazır olduğumuzu ifadə etmək istəyirəm. İcazə verin bildirim ki, ölkələrimizin və xalqlarımızın istəklərinə nail olmaq üçün biz münasibətlərimizi inkişaf etdirməyə çox şadıq. İcazə verin bildirim ki, ölkənizi idarəetmə tərziniz və qəbul etdiyiniz inkişaf siyasətini qavrama üsulunuz təkcə Azərbaycanda yox, bütün inkişaf etməkdə olan ölkələrdə qürur hissi oyadır. Nəinki təkcə Azərbaycanın aparıcı təcrübəsi ilə, eyni zamanda, ölkənin və Azərbaycan xalqının nailiyyətləri, uğuru və inkişafını təmin etmək istiqamətində yürütdüyünüz siyasətlə tanış olmaq bizim üçün çox yaxşı imkan idi. Biz bu münasibətlərin inkişafından fəxarət hissi keçiririk və bu kontekstdə mən bu yaxınlarda Azərbaycana yeni xanım səfirin təyin olunması xəbərini Sizə verməkdən şərəf hissi keçirirəm. Biz bu səfirə böyük etimad göstərəcəyik.

## Azərbaycan - Bosniya və Herseqovina əlaqələri uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Milorad Dodik ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrini qarşıladı.

Prezident İlham Əliyev və Rəyasət Heyətinin Sədri Milorad Dodik birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin və Rəyasət Heyətinin Sədri Milorad Dodikin görüşü oldu.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Cənab Sədr, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Sammitdə iştirak etdiyiniz üçün çox şadam. Bu, həm də ikitərəfli gündəlikdə olan məsələləri müzakirə etmək üçün yaxşı imkandır. Mən çox şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Bizim beynəlxalq təşkilatlar, xüsusilə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox fəal əməkdaşlığımız var. Beynəlxalq təşkilatlardakı qarşılıqlı dəstəyimiz çox vacibdir. İndi isə Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq, əlbəttə ki, üzv dövlətlərin qanuni maraqlarını nəzərə alacaq. Qarşıdakı üç il ərzində təşkilata yaxşı sədrlik etmək və üzv ölkələr arasında həmrəyliyi gücləndirmək üçün əlimizdən gələni edəcəyik.

İkitərəfli müstəvidə bizim çox fəal əməkdaşlığımız və bir çox yüksəksəviyyəli siyasi təmaslarımız var. Mən dəfələrlə Sizin sələflərinizlə həm Bakıda, həm də beynəlxalq tədbirlər çərçivəsində görüşmüşəm. Biz ikitərəfli əlaqələrin çərçivəsini müəyyənləşdirmişik. Sözsüz ki, Sizi Azərbaycanda qəbul etməyimə çox şadam. Əminəm ki, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq və ikitərəfli əlaqələrimizi gücləndirmək üçün birgə səylərimizi davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Milorad DODİK** dedi:

- Təşəkkür edirəm, cənab Prezident. Bu, mənim ölkənizə səfər etməyim və Sizinlə söhbət aparmağım üçün gözəl imkandır. Bu gözəl şəhərinizdə gördüklərimə və indiyə kimi qarşılaşdığım gözəl insanlara heyranlığımı ifadə etməliyəm. Ölkələrimiz arasındakı ikitərəfli əlaqələri yaxşılaşdırmaq üçün göstərdiyiniz möhtəşəm səylərə görə Sizə təşəkkür edirəm. Bilirəm ki, Bosniya və Herseqovina ilə yaxşı əlaqələrin qurulmasına böyük marağınız var və Siz bu işə sadiqsiniz. Bizə əvvəllər təklif etdiyiniz yardıma, istər humanitar yardım, istərsə də biznes imkanına görə də Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən səmimi təşəkkürlərimi ifadə etmək və bu uğurlu əməkdaşlığımızı davam etdirmək istəyirəm. Sizin Bosniya və Herseqovinadakı səfiriniz yaxşı fəaliyyət göstərir. O, çox sadiq və fəaldır. Bu, bizə yaxşı perspektivlər yaratmağa imkan verir. Lakin mən bilirəm ki, onun hər bir addımının arxasında Sizin bu işə sadiqliyiniz durur. İnanıram ki, Sizin Qoşulmama Hərəkatına sədrliyiniz münasibətlərimizi yeni müstəviyə çıxaracaq. Sammitin uğurlu təşkilinə görə Sizə təşəkkürümü bildirmək və Sizi təbrik etmək istərdim. Bu, əlbəttə ki, bizim daha ədalətli və sülh içində olan dünyaya inamımızı artırır.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü

## Prezident İlham Əliyev Liviyanın Baş Naziri Faiz Saracı qəbul edib

**Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Liviyanın Baş Naziri Faiz Saracı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Baş Nazir. Sizi Azərbaycanda bir daha salamlayıram. Xoş gəlmisiniz. Sizin Qoşulmama Hərəkatının Zirvə Görüşündəki fəaliyyətiniz yüksək qiymətləndirilir. Təşəkkür edirəm ki, Siz bu gün Azərbaycandasınız.

Azərbaycan artıq Qoşulmama Hərəkatında sədrliyə başlamışdır. Biz çox şadıq ki, sədr seçilməyimiz üzv ölkələrin yekdil qərarı əsasında olmuşdur. Bu, üzv dövlətlərin bizim siyasətimizə göstərdiyi böyük inamın, dəstəyin təzahürüdür. Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycan bu önəmli siyasi təsisatın baza prinsiplərini müdafiə edəcək. Ölkələrin müstəqilliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı Bandunq prinsiplərinin əsasını təşkil edir və bizim siyasətimizin də təməl prinsipləridir.

Əminəm ki, bu gün qəbul ediləcək Yekun Bəyannamədə bu prinsiplər öz əksini tapacaq və Azərbaycanın bu təsisatda rolu qeyd olunacaq.

Eyni zamanda, Sizin bu tədbirdə - Zirvə görüşündə iştirakınız yaxşı imkan yaradır ki, ikitərəfli gündəliyi də nəzərdən keçirək və ikitərəfli əlaqələrə təkan verək. Bir daha xoş gəlmisiniz.

* * *

Liviyanın Baş Naziri **Faiz SARAC** dedi:

- Təşəkkür edirəm. Bu gözəl bir tədbir əsnasında Sizin də vaxtınız çox məhduddur. Hər şeydən öncə mən Sizi təbrik etmək istəyirəm. Bu gözəl təşkilatçılığa görə Sizi təbrik edirəm. Həmçinin öz təbrikimi yeniləmək istəyirəm ki, Azərbaycan Respublikası artıq Qoşulmama Hərəkatına sədrliyə başladı.

Arzu edirəm ki, sizin sədrliyiniz dövründə Azərbaycan daha da çiçəklənsin və öz rolunu oynasın. Həqiqətən mən Bakıda gördüyüm gözəlliyi çox alqışlayıram. Bakıda gördüyüm gözəlliyin, memarlığın vurğunu olmuşam.

## Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan Prezidenti Arif Alvi ilə görüşü olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 26-da Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Prezident Arif Alvini qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyevin və Prezident Arif Alvinin görüşü oldu.

Prezident **Arif ALVİ** dedi:

- Maşallah, üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcəksiniz.

Prezident **İlham ƏLİYEV** dedi:

- Bəli, dünən Sizin dəstəyinizlə biz fəaliyyətə başladıq. Bizim Qoşulmama Hərəkatına sədr kimi namizədliyimizi dəstəklədiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qarşıdakı üç il ərzində biz üzv ölkələr arasında həmrəyliyi gücləndirmək, onlar üçün həssas olan məsələlərin həlli məqsədilə əlimizdən gələni etməyə çalışacağıq. Biz, əlbəttə ki, beynəlxalq hüquq, ədalət və Bandunq prinsiplərini dəstəkləyəcəyik. Bunlar bizim prinsiplərlə, yəni, ərazi bütövlüyü, müstəqillik, suverenlik, bir-birinin işlərinə qarışmama ilə üst-üstə düşür. Bunlar Azərbaycanın beynəlxalq arenada müdafiə etdiyi bütün əsas prinsiplərdir. Hesab edirəm ki, siyasətimizin önəmli elementlərindən biri də beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin icra edilməməsi məsələsinin həllinə çalışmaq olacaq.

Prezident **Arif ALVİ**: Birləşmiş Millətlər Təşkilatı kimi...

Prezident **İlham ƏLİYEV:** Bəli, Birləşmiş Millətlər Təşkilatı kimi. Bizim timsalımızda söhbət erməni qoşunlarının qeyd-şərtsiz olaraq və dərhal ərazilərimizdən çıxarılmasını tələb edən dörd qətnamədən gedir. Lakin onlar icra olunmur. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günə icra olunur.

Prezident **Arif ALVİ**: Qoşulmama Hərəkatı burada böyük rol oynaya bilər.

Prezident **İlham ƏLİYEV**: Biz, əlbəttə ki, bunu edəcəyik. Biz ikili standartlara qarşı mübarizə aparacağıq. Fürsətdən istifadə edərək, cənab Prezident, mən hökumətinizə, qardaş Pakistan xalqına Dağlıq Qarabağ məsələsində Azərbaycana davamlı dəstək göstərdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Pakistanın Azərbaycan ərazilərini işğal etdiyinə görə Ermənistanla diplomatik münasibətlər qurmaması faktı bizim xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

Prezident **Arif ALVİ**: Təşəkkür edirəm.

Prezident **İlham ƏLİYEV**: Bizim xalqımız bunu bilir. Xalqımız bilir ki, siz əsl qardaşlarsınız və qardaşlığın bu misilsiz jesti tərəfimizdən həqiqətən yüksək qiymətləndirilir. Biz hazırda bir çox sahələri əhatə edən yaxın qardaşlıq münasibətlərini qurmuşuq. Mən Sizin gözəl ölkənizə bir neçə dəfə səfər etmişəm.

Prezident **Arif ALVİ**: Bəli.

Prezident **İlham ƏLİYEV**: Çox şadam ki, Siz bizə səfər edirsiniz, lakin biz Sizin rəsmi səfərinizi gözləyəcəyik.

Prezident **Arif ALVİ**: Bəli, elədir. Yaxşı fürsət tapan kimi gələcəyəm. Zati-aliləri, biz ticarətin artırılmasına, bir sıra sahələrdə əməkdaşlığın inkişafına diqqət yetirməliyik. Hesab edirəm ki, biz təhsil və səhiyyə sahələrində əməkdaşlıq edə bilərik. Mən geri qayıdandan sonra Pakistanın yaxşı təhsil verən və yaxşı xəstəxana, müalicə xidmətləri təklif edən qurumlarını Bakıda standartlara cavab verən xəstəxana və məktəblər tikmək imkanlarını nəzərdən keçirməyə ruhlandıracağam. Eyni zamanda, Azərbaycan neft sektorunda möhtəşəm, uzunmüddətli təcrübəyə malikdir. Mən Qvadarda neft emalı müəssisəsinin yaradılmasının mümkünlüyünü nəzərdən keçirməyi təklif etmək istərdim. Qvadar dəniz limanıdır.

Prezident **İlham ƏLİYEV**: Bəli, bilirəm.

Prezident **Arif ALVİ**: “Şimal-Cənub dəhlizi” faktiki olaraq Çabahardan keçir. Qvadarla da bağlantı yaratmaq olar ki, Azərbaycan cənubdakı okean vasitəsilə bütün təchizat məhsullarını ixrac edə bilsin. Bir çox sahələrdə əməkdaşlığı artırmaq mümkündür.

## Prezident İlham Əliyev Banqladeşin Baş Naziri xanım Şeyx Hasinanı qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Banqladeş Xalq Respublikasının Baş Naziri xanım Şeyx Hasinanı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Banqladeş Xalq Respublikasının Baş Naziri xanım Şeyx Hasina Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə, həmçinin nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı üzv dövlətlərin yekdil dəstəyi ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsinin ölkəmizə olan yüksək etimadın və hörmətin təzahürü olduğunu vurğuladı.

Görüşdə Qoşulmama Hərəkatının gündəliyində duran məsələlər, həmçinin kənd təsərrüfatı, humanitar, mədəniyyət və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.

Daha sonra Azərbaycan Respublikası Hökuməti və Banqladeş Xalq Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş imzalandı.

## Azərbaycan Prezidenti İlham Əliyev Esvatininin Kralı Əlahəzrət III Msvati ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Esvatininin Kralı Əlahəzrət III Msvati ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Esvatininin Kralı Əlahəzrət III Msvati Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkil edildiyini vurğuladı və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin əhəmiyyəti vurğulandı. Müxtəlif sahələrdə, o cümlədən turizm, energetika, elm, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bandeni qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bandeni qəbul edib.**



AZƏRTAC xəbər verir ki, BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkil olunduğunu, bu tədbirin dünyada sülhün qorunması, əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyini bildirdi. Qonaq Bakıya səfəri çərçivəsində Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda, Sumqayıt Texnologiyalar Parkında, “ASAN xidmət”də olduğunu, bu xidmətin fəaliyyətinin yüksək səviyyədə təşkil edildiyini vurğuladı.

Prezident İlham Əliyev Ticani Məhəmməd-Bandenin Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündəki iştirakının önəmini qeyd etdi, onun dünənki çıxışında dəyərli fikirlər səsləndirdiyini bildirdi. Dövlət başçısı bu səfərin BMT ilə Azərbaycan arasında gələcək əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev qonağın “ASAN xidmət”də olmasını qeyd edərək, “ASAN xidmət”in Azərbaycanın təşəbbüsü ilə yaradıldığını, onun BMT-nin mükafatına layiq görüldüyünü bildirdi. Dövlətimizin başçısı bu xidmətin təcrübəsindən artıq xarici ölkələrdə də istifadə olunduğunu, Əfqanıstanda “ASAN xidmət”in fəaliyyətə başladığını dedi, bununla Azərbaycanın artıq öz intellektual məhsulunu ixrac etdiyini vurğuladı. Prezident İlham Əliyev əhaliyə sosial dəstək məqsədilə “DOST” xidmətinin də yaradıldığını, yaxın gələcəkdə 30-dan çox mərkəzin açılacağını bildirdi. Ticani Məhəmməd-Bandenin Sumqayıta səfərinə toxunan dövlətimizin başçısı Sumqayıt Texnologiyalar Parkında həyata keçirilən işlərdən danışdı, orada böyükhəcmli ekoloji tədbirlərin görüldüyünü qeyd etdi.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlərdən danışdı, texnologiyalar sahəsinin inkişafına Azərbaycanda böyük önəm verildiyini dedi, ölkəmizdə kosmik sənayenin yaradıldığını bildirdi. Dövlətimizin başçısı Amerikada Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı Bakı şəhərinin 2022-ci ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququnu qazandığını qeyd etdi, bu mötəbər beynəlxalq tədbirin bir neçə şəhər arasında məhz Bakıda keçirilməsi ilə bağlı qərarın ölkəmizin bu sahədə gördüyü işlərə beynəlxalq aləmdə verilən qiymətin təzahürü olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycanda turizmin inkişafına da böyük əhəmiyyət verildiyini, ölkəmizə gələn çoxlu sayda turistlərə qısa zamanda asanlıqla elektron viza almaq üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.

Dövlət başçısı Azərbaycanda multikulturalizmin dövlət səviyyəsində dəstəkləndiyini, ölkəmizdə müxtəlif xalqların və dinlərin birgə yaşaması üçün hər cür şəraitin yaradıldığını, beynəlxalq ictimaiyyətin ölkəmizdə bu sahədə aparılan işləri yüksək qiymətləndirdiyini dedi, tarixi-dini abidələrin dövlət səviyyəsində qorunması istiqamətində tədbirlərin görüldüyünü bildirdi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhan ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhan ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Abdel Fattah Abdelrahman Al-Burhan Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. O, Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik edəcəyinə əminliyini vurğuladı. Abdel Fattah Abdelrahman Al-Burhan Azərbaycanın inkişafının, ölkəmizdə olan sabitliyin və əmin-amanlığın, paytaxt Bakının gözəlliyinin onda böyük təəssürat yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına üzv dövlətlərlə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini bildirdi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin vacibliyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv ölkələr arasında əməkdaşlığın inkişafına və həmrəyliyin gücləndirilməsinə töhfə verəcəyini dedi.

Görüşdə Azərbaycan ilə Sudan arasında iqtisadi-ticari, elm-təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü

## Prezident İlham Əliyev BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavinini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlonu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, xanım Rozmari DiKarlonu salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Zirvə görüşündə iştirak etdiyinizə görə sizə təşəkkür edirəm. Çıxışınız üçün sağ olun. BMT-nin burada yüksək səviyyədə təmsil edilməsi çox vacibdir. Sədrliyi qəbul etdik və üç il ərzində Qoşulmama Hərəkatının əsas prinsiplərinə sadiq qalmaq üçün əlimizdən gələni etməyə çalışacağıq. Əlbəttə, bu, bizim üçün böyük məsuliyyət, eyni zamanda, şərəfdir. Çünki biz nisbətən yeni üzv ölkəyik, yalnız 8 ildir üzv olmuşuq və hazırda bütün üzvlərin dəstəyini görürük. Bildiyiniz kimi, sədrliyə olan namizədliyimiz yekdilliklə qəbul edilmişdi. Bu, beynəlxalq ictimaiyyətin üçdəikisinin dəstəyini nümayiş etdirməsi idi. Əlbəttə ki, bizim siyasətimiz, atdığımız addımlar, beynəlxalq hüququn, ədalətin qorunmasına, aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrinin icra edilməsinə sadiq qalmaq üzrə baxışımız bu qərarın qəbul edilməsində mühüm rol oynadı.

Bildiyiniz kimi, bəzi üzv ölkələr arasında müəyyən problemlər var. Bəzilərinin uzun tarixçəsi var, bəzi problemlər yeni ortaya çıxıb. Lakin buna baxmayaraq, Azərbaycana göstərilən münasibət baxımından, hətta Azərbaycanla ikitərəfli əlaqələri yaxşı olmayan bəzi ölkələr belə bizi dəstəkləyir. Hesab edirəm ki, açıq, səmimi siyasət yürütməklə, harada ki, sözlərimiz və imzalarımız üst-üstə düşür, biz belə bir yekdil dəstəyi ala bilmişik. Əlbəttə, qarşıdan gələn illərdə qlobal gündəlikdə olan məsələlərin həlli üzrə sizinlə birgə işləyəcəyik. Zirvə görüşündə iştirak etdiyiniz üçün bir daha təşəkkür edirəm.

Xanım **Rozmari DİKARLO** dedi:

- Çox sağ olun. Məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bizə gözəl ölkənizi ziyarət etmək imkanı yaratdığınız üçün Sizə minnətdaram. İyirmi doqquz il əvvəl Azərbaycana gəlmişdim. Onu deyim ki, ölkəniz əhəmiyyətli şəkildə dəyişib. Nəinki təkcə sədrliyi qəbul etdiyinizə görə, eyni zamanda, bir çox beynəlxalq tədbirləri burada, Bakıda təşkil etdiyinizə görə də Sizə təşəkkür edirəm və Sizi təbrik edirəm. Sizin bu yaxınlarda irəli sürdüyünüz bir çox təşəbbüslərdən bizim məlumatımız var və bunlar bizim üçün çox vacibdir. Çox vacibdir, çünki siz çoxtərəfliliyin çox güclü bir tərəfdarısınız. Beynəlxalq ictimaiyyətlə, BMT ilə bu istiqamətdəki bir sıra təşəbbüslər üzərində işləyirsiniz.

Prezident **İlham ƏLİYEV** dedi:

- Sözləriniz üçün sağ olun. Biz Baş katib Quterreşin multikulturalizm təşəbbüsümüzə göstərdiyi dəstəyi üçün minnətdarıq. "Bakı Prosesi" mədəniyyətlərarası dialoq məsələləri üçün bir qlobal platformaya çevrildi. Biz BMT-nin bu təşəbbüsə dəstəyini yüksək qiymətləndiririk. Bu prosesə başlayanda onun uğurlu olacağı ilə bağlı böyük ümidlərin olmadığını xatırlayıram. Bu, 2008-ci ilin sonuna təsadüf edirdi. Dedim ki, niyə də cəhd etməyək? Çünki Azərbaycan həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olan çox az ölkələrdən biridir. Bu imkanımızdan niyə də istifadə etməyək? Nəzərə alsaq ki, yalnız müstəqillik illərində yox, bütün siyasi və ictimai təzahürlərin tərkibində, hətta başqa ölkələrin tərkibində olduğumuz zaman da multikulturalizm ruhu həmişə bizdə mövcud idi. Bakı müxtəlif dinlərin, etnik qrupların nümayəndələrinin sülh içində yaşadığı şəhər, Azərbaycan isə ölkə olub və bu, işə yaradı. İndi BMT-nin güclü dəstəyini görürük. Şəffaflıqla bağlı səylərimizin yüksək qiymətləndirilməsi üçün də sizə minnətdaram. Bir neçə il əvvəl Neft Fondu adlanan suveren fondumuz BMT-dən mükafat aldı. Hazırda başqa ölkələrdə də fəaliyyətini genişləndirən dövlət xidmətləri sistemi olan "ASAN"ın da fəaliyyəti BMT tərəfindən xüsusi olaraq qiymətləndirilmişdir. Biz buna böyük dəyər veririk. Həyata keçirdiyimiz bütün işlər də ölkənin gücləndirilməsi, insanlar üçün daha yaxşı şəraitin yaradılması və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə istiqamətlənib. Bunlara nəqliyyat və energetika layihələri də daxildir. Onlar bizi birləşdirdi, ölkələr arasında qarşılıqlı bağlılıq yaratdı. Bu, gücdür, sabitlikdir.

## Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü uğurla başa çatıb

### Zirvə görüşünün yekununda dörd sənəd qəbul edilib



Oktyabrın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, Zirvə görüşünün ikinci iş günü ümumi debatlarla davam edib.

Ümumi debatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin yüksəkvəzifəli rəsmi şəxsləri, beynəlxalq təşkilatların rəhbərləri və nümayəndələri, xüsusi qonaqlar, diplomatlar çıxış etdilər.

Çıxış edən natiqlər dünyada baş verən böhranlardan, regional münaqişələrdən və onların həlli yollarından, işğalların, yoxsulluğun, dini və irqi ayrı-seçkiliyin aradan qaldırılması üçün görülməsi zəruri olan tədbirlərdən, ölkələrin ərazi bütövlüyünün və suverenliyinin qorunmasının əhəmiyyətindən, iqlim dəyişikliklərinə qarşı mübarizədən danışıblar. Onlar bu problemlərin həllinin tapılması üçün çoxtərəflilik prinsiplərinin bərqərar olmasının, daha tarazlı yanaşmanın tətbiqinin vacibliyini bildiriblər. Həmçinin qeyd olunub ki, üzv dövlətlərin qarşılıqlı fəaliyyətləri nəticəsində Qoşulmama Hərəkatı çərçivəsində bir sıra nailiyyətlər əldə edilib. Lakin təşkilatın fəaliyyətinin daha da təkmilləşdirilməsi və onun BMT-nin kağız üzərində qalan qərarlarının həyata keçirilməsinə təsir göstərmək iqtidarında olması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi üçün hələ bir sıra işlər görülməlidir. Bildirilib ki, Qoşulmama Hərəkatına üzv dövlətlər dayanıqlı inkişafın təmin olunması üçün göstərilən səyləri təşviq etməlidir və qarşıya çıxan çağırışlarla birgə mübarizə aparmalıdırlar.

Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə, Azərbaycan Hökumətinə və xalqına minnətdarlıqlarını bildirən natiqlər əmin olduqlarını vurğuladılar ki, ölkəmizin Qoşulmama Hərəkatına sədrlik edəcəyi növbəti üç il ərzində təşkilat Bandunq prinsiplərinə sadiq qalaraq daha böyük uğurlara imza atacaq.

Məhsuldar müzakirələrə görə Zirvə görüşünün iştirakçılarına təşəkkürünü bildirən Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün dörd yekun sənədinin təsdiq edilərək dövlət və hökumət başçılarına təqdim olunduğunu bildirdi.

Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini bildirən E.Məmmədyarov ölkəmizə göstərilən etimada görə üzv dövlətlərə minnətdarlığını bildirdi. Nazir qeyd etdi ki, qəbul edilən sənədlər üzv dövlətlərin Bandunq prinsiplərinə sadiqliklərini bir daha nümayiş etdirir.

Ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələrə toxunan nazir bildirdi ki, təşkilata sədrliyi dövründə Azərbaycan dialoqun və əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Sonra Bakı Yekun Sənədi, Bakı Bəyannaməsi, Fələstinə dair Bəyannamə və Azərbaycan Respublikası hökumətinə və xalqına təşəkkür və həmrəylik Sənədi qəbul olundu.

Beləliklə, 120 üzvü tamhüquqlu olan, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı özündə birləşdirən Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü uğurla başa çatdı.

## Qlobal sülh missiyasının təminatı İLHAM ƏLİYEVə həvalə olundu

Əvvəli 1-ci səh.

Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır.

Əlavə edək ki, Yer kürəsi əhalisinin təqribən 55 faizi Qoşulmama Hərəkatı ölkələrində yaşayır, eyni zamanda dünyada neft ehtiyatlarının 75 faizindən və qaz ehtiyatlarının 50 faizindən çoxu bu dövlətlərin ərazisində yerləşir.

Cənab İlham Əliyev məhz bu amilləri nəzərə alaraq vurğuladı ki, Azərbaycan hərəkatda sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcək. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi çox mühümdür.

### Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir

Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşının olduğunu xatırladan dövlət başçısı bu qısa müddətdə əldə edilən böyük uğurlardan söz açdı və qeyd etdi ki, ölkəmiz demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun da dərin tarixi kökləri var.

Bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir: "Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur".

Lakin bir həqiqət var ki, ötən 28 ildə Azərbaycan bu uğurları ərazisinin 20 faizinin işğalda, yəni müharibə şəraitində ola-ola əldə edib. Tarixi torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış əraziləri 25 ildən artıqdır Ermənistanın işğalı altındadır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunsa da, təəssüf ki, həmin qətnamələr həyata keçirilmir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır. Qoşulmama Hərəkatının sədri bu ikili standartlar siyasətinə son qoyulmasının vacibliyini vurğuladı.

Ümumiyyətlə, cənab İlham Əliyev bütün beynəlxalq toplantılarda olduğu kimi, Qoşulmama Hərəkatının sədri kimi də Bakıda keçirilən Zirvə Görüşündə dünyanın diqqətini bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi. Azərbaycan Prezidenti bir daha dünyaya bəyan etdi ki, bu münaqişənin həllinə ölkəmizin ərazisinin 20 faizini işğal etmiş Ermənistanın qeyri-konstruktiv mövqeyi, dünyada mövcud olan ikili standartlar, təcavüzkara təsir göstərmək, onu sivil normalar çərçivəsində davranmağa məcbur etmək üçün hüquqi mexanizmlərin olmaması və ya qeyri-mükəmməlliyi mane olur. Ancaq gec-tez münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

### Azərbaycan dayanıqlı inkişafa və ədalətin təmin olunmasına töhfələr verəcək

Zirvə Görüşündəki ümumi debatlarda isə hərəkatın qarşısında durduğu mühüm vəzifələrdən söz açıldı və Azərbaycanın sədrliyi müddətində görüləcək işlər müzakirə mövzusu oldu.

Azərbaycan Prezidentinin də iştirak etdiyi debatlarda çıxış edən natiqlər dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğuladılar. Çıxışlarda 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində göstərilən səylərin artırılmasının, iqlim dəyişikliyi, miqrasiya, qaçqın və köçkün problemlərinin həllinin, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının, transmilli cinayətkarlığa qarşı mübarizənin, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasının, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin önəmi vurğulandı, Qoşulmama Hərəkatına üzv dövlətlərin bu sahədə birgə əməkdaşlığının vacibliyi diqqətə çatdırıldı. Eyni zamanda vurğulandı ki, üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi olduqca vacib məsələlərdəndir.

Çıxış edənlər mövcud problemlərin həllində Qoşulmama Hərəkatının kifayət qədər güclü mövqelərə malik olduğunu deyərək 64 il bundan qabaq - 1955-ci ildə qəbul olunan Bandunq prinsiplərinin bu gün də aktual olması fikrində həmrəylik nümayiş etdirdilər.

Prezident İlham Əliyevin adından Zirvə Görüşündə iştirak edən ölkə liderləri və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə təşkil olunan rəsmi ziyafətdə də dövlət başçısı bir daha Azərbaycanın təşkilata sədrliyi dövründə məqsəd və məramından söz açdı: "Məqsədimiz üzv dövlətlərlə birgə Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, dayanıqlı inkişafa və ədalətin təmin olunmasına töhfələr verməkdir. Ölkəmizin hərəkata sədrliyi dövründə üzv dövlətlər arasında həmrəylik və qarşılıqlı dəstək münasibətlərinin təşviqi prioritetimiz olacaqdır. Biz, həmçinin üzv ölkələr arasında mövcud olan məsələlərin, yarana biləcək problemlərin həllinə kömək göstərməyə çalışacağıq".

BMT Baş Assambleyasından sonra üzv dövlətlərin sayına görə ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə Görüşünü dünya miqyasında ən önəmli hadisə adlandıran cənab İlham Əliyev ölkəmizin Hərəkata sədrliyi dövründə üzv dövlətlər arasında həmrəylik və qarşılıqlı dəstək münasibətlərinin təşviqinin prioritet məsələ olacağını, eləcə də Azərbaycanın üzv ölkələr arasında mövcud olan məsələlərin, yarana biləcək problemlərin həllinə kömək göstərməyə çalışacağını vurğuladı.

### Azərbaycanın sədrliyi dövrü Hərəkatın tarixində xüsusi yer tutacaq

Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda heç bir hərbi bloka qoşulmamış və belə niyyəti olmayan yeganə ölkədir. Ona görə də deyə bilərik ki, ölkəmiz bu qurumda sədrliyi çərçivəsində təşkilatın beynəlxalq münasibətlər sistemində rolunun və nüfuzunun artmasına şərait yaradacaq.

2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycanın məqsədi üzv dövlətlərlə birlikdə Hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə və dayanıqlı inkişafa öz töhfəsini artırmaq olacaq.

Azərbaycan təşkilatın üzvləri olan xalqlar arasında həmrəylik və dostluğun möhkəmlənməsinə, bu ölkələr arasında qarşılıqlı ticarətin təşviqinə, müxtəlif sahələrdə təcrübə mübadiləsinə real imkan yaradacaq. Eyni zamanda ölkəmiz qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığa, birgə təşəbbüslərin reallaşmasına kömək edəcək.

Bir sözlə, 64 il öncə - 1955-ci ildə Cəvahirləl Nehru, Camal Abdel Nasir kimi liderlərdən başlanan azadlıq, sülh missiyası bu gün Azərbaycan Prezidentinə həvalə olundu. Əminliklə deyə bilərik ki, cənab İlham Əliyev bu tarixi missiyanın da öhdəsindən layiqincə gələcək və Azərbaycanın sədrliyi dövrü Qoşulmama Hərəkatının tarixində xüsusi yer tutacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın Xarici İşlər naziri Qoşulmama Hərəkatının XVIII Sammiti çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çərçivəsində bir sıra görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Maldiv Respublikasının Xarici İşlər naziri Abdulla Şahid ilə görüşdə Azərbaycan və Maldiv Respublikası arasında siyasi, iqtisadi, təhsil və turizm sahələrində əməkdaşlığın inkişafı perspektivləri müzakirə olundu.

Abdulla Şahid Qoşulmama Hərəkatının Nazirlər Konfransının yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi.

Elmar Məmmədyarov qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına təkan verəcəyini bildirdi.

Nazir Abdulla Şahid iki ölkə arasında birbaşa uçuşların həyata keçirilməsinin vacibliyini vurğuladı.

Nazir Elmar Məmmədyarov, öz növbəsində, turizmi təşviq etmək məqsədilə iki ölkə arasında viza rejiminin aradan qaldırılması istiqamətində müvafiq işlərin görülməsini təklif etdi.

Tərəflər, həmçinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və beynəlxalq arenada əməkdaşlıq məsələlərini müzakirə etdilər.

* * *

Zambiyanın Xarici İşlər naziri Cozef Malanjı ilə görüşdə iki ölkə arasında həm siyasi, həm də mədəni və humanitar sahələrdə tərəfdaşlığın artırılması üçün perspektivlərin mövcudluğu vurğulandı. Bu xüsusda, turizm və təhsil sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün ölkələr arasında müqavilə-hüquq bazasının artırılması, o cümlədən vizasız gediş-gəliş sisteminin tətbiq edilməsinin vacibliyi qeyd olundu.

Elmar Məmmədyarov Azərbaycan ilə Zambiya arasında ikitərəfli əsaslarla yanaşı, beynəlxalq platformalar, bu xüsusda BMT və Qoşulmama Hərəkatı çərçivəsində də mövcud perspektivlərdən faydalanmağın vacibliyini vurğuladı.

Cozef Malanjı ölkələr arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. O, Zambiya Prezidenti tərəfindən Azərbaycan Prezidentinə ünvanlanmış məktubu təqdim etdi.

* * *

Efiopiya Xarici İşlər nazirinin müavini Markos Tekle ilə görüşdə isə iki ölkə arasında əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə edildi. İqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri qeyd olundu.

Efiopiya rəsmisi Azərbaycanı Qoşulmama Hərəkatında sədrliyə başlaması və XVIII Zirvə Görüşünün uğurlu təşkili münasibətilə təbrik etdi. O, Azərbaycanın sədrliyinin uğurlu olacağına və ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf edəcəyinə ümidini ifadə etdi.

Nazir Elmar Məmmədyarov Qoşulmama Hərəkatı ilə G-77 arasında əlaqələndirilmiş fəaliyyətin və Cənub-Cənub əməkdaşlıq platforması çərçivəsində birgə səylərin əhəmiyyətinə diqqət yetirdi. Həmçinin Efiopiyaya səfərini xatırlayan Elmar Məmmədyarov səfərin çox məhsuldar keçdiyini qeyd etdi. O, efiopiyalı həmkarını Azərbaycana səfərə dəvət etdi.

* * *

Elmar Məmmədyarovun daha bir görüşü Niger Respublikasının Xarici İşlər, Əməkdaşlıq və Afrika İnteqrasiyası naziri Kalla Ankurao ilə olub. O, Azərbaycanın Niger ilə əməkdaşlığının dərinləşdirilməsində maraqlı olduğunu dedi.

Nazir Kalla Ankurao Qoşulmama Hərəkatının Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini söylədi və ölkəmizə sədrliyi dövründə uğurlar arzuladı.

Görüşdə Nigerdən olan tələbə və mütəxəssislərin Azərbaycanda təhsil almaq, habelə neft sənayesi sahəsində Azərbaycanın təcrübəsindən faydalanmaq niyyətində olduğu qeyd edildi və bu istiqamətlərdə məhsuldar əməkdaşlığın davam etdirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin iki ölkə arasında beynəlxalq təşkilatlar, xüsusilə BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində sıx əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyəti qeyd edildi. Niger ilə Azərbaycan arasında BMT və İƏT çərçivəsində təşəkkül tapmış əməkdaşlığın Qoşulmama Hərəkatı çərçivəsində də müvəffəqiyyətlə inkişaf edəcəyinə dair əminlik ifadə edildi. Bu xüsusda, 2020-ci ildən Nigerin BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyünün gözəl fürsət olacağı bildirildi.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü

## Birinci vitse-prezident Mehriban Əliyeva "İnstaqram" səhifəsində Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü ilə əlaqədar paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: "Gələn üç il ərzində ölkəmiz Qoşulmama Hərəkatına sədrlik edəcək və mən əminəm ki, bu illər ərzində öz fəaliyyətini məhz bu prinsiplər - əməkdaşlıq, tərəfdaşlıq, qarşılıqlı hörmət, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə dəstək şəklində həyata keçirəcək".

## *Hikmət HACIYEV:* "Əminik ki, Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik edəcək"



Azərbaycan Respublikası Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyi edir. Ölkəmiz bu quruma 2011-ci ildə üzv olmasına baxmayaraq, az müddət ərzində böyük hörmət və nüfuz qazana bilib. Məhz bu səbəbdən 2018-ci ildə üzv dövlətlərin yekdil rəyi ilə XVIII Zirvə Görüşünün ölkəmizdə keçirilməsinə qərar verilib. Qoşulmama Hərəkatının (QH) üzv dövlətləri Azərbaycana etimad göstərərək 2019-2022-ci illərdə də təşkilata sədrliyi Azərbaycana həvalə ediblər.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Zirvə görüşünün proqramına uyğun olaraq Venesuela Prezidenti sədrliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təhvil verdi. Dövlətimizin başçısı Qoşulmama Hərəkatının sədrliyi missiyasını yerinə yetirərək Azərbaycan Respublikasının mövqeyini əks etdirən geniş və məzmunlu nitq söylədi. Prezident öz nitqində Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyində prioritetləri və bu hərəkat çərçivəsində əməkdaşlıq, həmçinin ölkəmizin inkişafı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə rolundan danışdı, Bandunq prinsiplərinin Azərbaycanın Hərəkata sədrliyinin əsas təməl prinsiplərini təşkil edəcəyini vurğuladı.

"Tarixi Bandunq prinsiplərinin bünövrəsində dövlətlərin ərazi bütövlüyü, suverenlik, dövlətlərin və xalqların bir-biri ilə qarşılıqlı hörmət prinsipləri əsasında yaşaması, bir-birinin daxili işlərinə qarışmaması kimi meyarlar dayanır. Dövlət başçısı vurğuladı ki, məhz bu prinsiplər Azərbaycan Respublikasının məramının özəyini təşkil edir və ölkəmizin xarici siyasətini əks etdirir. Azərbaycan beynəlxalq münasibətlərdə məhz bu məqsədləri, məramları təşviq edir. Ona görə də ölkəmiz quruma sədrliyi dövründə Bandunq prinsiplərinin təşviq edilərək güclənməsinə səy göstərəcək. Azərbaycan Prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlətimizin konkret mövqeyini, Azərbaycanın uğurlu inkişaf modelini faktlar və rəqəmlərlə auditoriyanın diqqətinə çatdırdı. Dövlət başçısı öz nitqində ölkəmizin ərazi bütövlüyünün pozulması, Ermənistanın gücdən istifadə edərək ərazilərimizi işğal altında saxlaması, Xocalı soyqırımı, mülki Azərbaycan əhalisinə qarşı törədilən etnik təmizləmə və işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyəti, eləcə də beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsi barədə faktları diqqətə çatdırdı. Prezident İlham Əliyev bir məqamı xüsusilə vurğuladı ki, beynəlxalq ictimaiyyət deyəndə bir qrup ölkə və ya dövlətdən söhbət getmir. Beynəlxalq ictimaiyyət elə Qoşulmama Hərəkatının özü deməkdir. Dünyanın 120 dövlətinin nümayəndəsi burada iştirak edir və ümumilikdə 2300-dən çox qonaq var. Bakı Zirvə Görüşündə çoxsaylı ölkələrin dövlət başçıları və digər yüksəkvəzifəli şəxslər iştirak edir və öz ölkələrinin problemlərini ortaya qoyurlar. Bütün bunlar onu göstərir ki, beynəlxalq ictimaiyyətin mövqeyinin hərtərəfli şəkildə dinlənilməsi və Hərəkata üzv dövlətlər arasında həmrəyliyin, qarşılıqlı dəstəyin inkişaf etdirilməsinə xüsusi ehtiyac var", - deyə Prezident Administrasiyasının şöbə müdiri bildirib.

Sammitdə Qoşulmama Hərəkatı və BMT-nin gündəliyində olan məsələlərin bir-biri ilə sinxronluq təşkil etdiyini diqqətə çatdıran Hikmət Hacıyev qeyd edib ki, Zirvə görüşünün xarakterik xüsusiyyətlərindən biri də Azərbaycanın uğurlu gənclər siyasətindən çıxış edərək ilk dəfə bu Hərəkat çərçivəsində Gənclər Sammitinə evsahibliyi etməsidir. Azərbaycan təşkilata sədrliyi dövründə gənclər siyasətinə xüsusi önəm verəcək. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan müxtəlif beynəlxalq təşkilatların üzvüdür. Ölkəmiz üzv olduğu digər beynəlxalq və regional təşkilatların Qoşulmama Hərəkatı ilə əməkdaşlığının möhkəmləndirilməsində öz töhfəsini əsirgəməyəcək. Azərbaycan Respublikası sivilizasiyalar və mədəniyyətlərarası dialoqda fəal iştirak edən dövlətdir. Onun sədrliyi dövründə bu məramlar da diqqətdə saxlanılacaq.

"Sammitin sonunda mühüm sənəd imzalanıb ki, burada Bakı görüşünün nəticələri öz əksini tapıb. Bu, Zirvə görüşünün konkret məqsədə, məramlara xidmət etməsini göstərən yekun sənəddir. Burada beynəlxalq ictimaiyyəti və Azərbaycanı narahat edən məsələlər öz əksini tapıb. Yekunda dörd sənəd qəbul olunub. Azərbaycan sədrlik funksiyasını yerinə yetirərək kompromislər əsasında konsensusun tapılması, toplantıda aparılan müzakirələrin sənədlərə daşınmasına öz töhfəsini verib. İlk növbədə, söhbət Bakı Bəyannaməsindən gedir. Bu, yığcam sənəddə prioritetlər əks olunub. İkinci sənəd Bakı Zirvə toplantısının nəticələrini ehtiva edir. Fələstinlə bağlı ayrıca sənəd qəbul edilib. Təşkilatda məhz Fələstin problemi ilə bağlı xüsusi komitə fəaliyyət göstərir. Müzakirələrin yekununda daha bir sənəd imzalanıb. Belə ki, Qoşulmama Hərəkatının üzvü olan 120 dövlət, o cümlədən sammitdə iştirak edən müşahidəçi dövlətlər, beynəlxalq təşkilatlar, xüsusi qonaqlar tədbirin yüksək səviyyədə təşkilinə, eləcə də 2019-2022-ci illərdə təsisata sədrlik kimi məsuliyyətli funksiyanı öz üzərinə götürdüyünə görə Azərbaycan dövlətinə və xalqına təşəkkür sənədi imzalayıb. Yekunda dörd əsas sənədin qəbul olunması Azərbaycanın evsahibliyi etdiyi Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün səmərəliliyindən xəbər verir", - deyə Hikmət Hacıyev vurğulayıb.

O, həmçinin əlavə edib ki, sammitin başa çatması təsisata sədr kimi Azərbaycan üçün yeni və məsuliyyətli dövrün başlaması deməkdir. Çünki Qoşulmama Hərəkatına sədrlik böyük siyasi iradə, məsuliyyət, diplomatik güc və imkanlar tələb edir. 2019-2022-ci illərdə bu çərçivədə müzakirə olunan prioritet məsələlərin həlli üçün bacarıqlar ortaya qoyulacaq. Əminik ki, Azərbaycan Respublikası dövlət başçısının rəhbərliyi ilə xüsusi diplomatik bacarıq və məharət nümayiş etdirərək bu missiyanın da öhdəsindən layiqincə gələcək və Qoşulmama Hərəkatına uğurla sədrlik edəcək.

## Əməkdaşlıq daha da dərinləşir

Azərbaycanla Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) əməkdaşlığının gələcək perspektivləri müzakirə edilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 26-da nazir Ramin Quluzadə ilə Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək məqsədilə Bakıda səfərdə olan Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru vəzifəsini icra edən Kornel Feruta arasında görüş keçirilib.

Görüş zamanı Azərbaycanla AEBA arasında əməkdaşlığın hazırkı vəziyyəti və gələcək perspektivləri barədə danışılıb. Ölkəmizdə nüvə tədqiqatları sahəsində görülmüş işlər, kadr potensialının inkişafı, bu istiqamətdə birgə seminar və təlimlərin təşkili müzakirə olunub.

Bildirilib ki, AEBA ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC arasında texniki əməkdaşlıq çərçivəsində bir sıra layihələr uğurla icra olunub. Mərkəz AEBA-nın kiçik modul reaktorlar, nüvə materialları və təhlükəsizlik üzrə regional layihələrində də fəal iştirak edir.

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru vəzifəsini icra edən K.Feruta Azərbaycanla əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduqlarını, bunun üçün geniş imkanların mövcudluğunu vurğulayıb.

## Qoşulmama Hərəkatı, Azərbaycanın milli maraqları və antimilli müxalifətin bəsit təfəkkürü

"Sıralarında 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Bakıda keçirilməsi ölkəmiz və regionumuz üçün olduqca mühüm əhəmiyyət kəsb edən siyasi hadisədir. Qoşulmama Hərəkatında 120 üzv dövlətlə yanaşı, həm də Birləşmiş Millətlər Təşkilatı, Afrika İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı kimi dünyanın 10 beynəlxalq nüfuzlu təsisatının, əlavə olaraq müşahidəçi statusu ilə 17 dövlətin iştirak etməsi bu təşkilatın çox ciddi və qlobal əhəmiyyət daşıyan əməkdaşlıq platforması olduğundan xəbər verir. Üzvlərinin sayına görə Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra dünyanın ən böyük beynəlxalq qurumudur".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb. Statusda deyilir:



"Hazırda Qoşulmama Hərəkatına üzv olan ölkələrin ərazisində dünya əhalisinin 55 faizi yaşayır. Dünyanın neft ehtiyatlarının 75, təbii qaz ehtiyatlarının isə 50 faizindən çoxu həmin ölkələrin payına düşür. Bu isə onun həm də iqtisadi əməkdaşlıq üçün ciddi perspektiv vəd edən beynəlxalq təsisat olduğunu göstərir.

Digər tərəfdən, Hərəkatın növbəti Zirvə Görüşünün Azərbaycanda keçirilməsi ölkəmizin qlobal proseslərdəki rolunun və beynəlxalq nüfuzunun gündən-günə artdığını təsdiqləyir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi bizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür".

Qoşulmama Hərəkatının Azərbaycan üçün önəmini artıran amillərdən biri də bu təşkilatın prinsiplərinin ölkəmizin xarici siyasət prioritetləri ilə tam üst-üstə düşməsidir. Hərəkat dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirir, beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir. Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün ilk günlərindən bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə dəstəkləyib, qəbul olunmuş bütün sənədlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt 2019-cu ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının iclasında qəbul olunmuş yekun sənəddə də öz əksini tapıb. Nəticə etibarilə, dünyanın 120 dövləti, yəni planetin təqribən üçdəiki hissəsi Azərbaycanın ədalətli mövqeyinə öz dəstəyini ifadə edib.

Azərbaycanın 2019-2022-ci illərdə Hərəkata sədrlik etməsi dövlətimizin qlobal proseslərdəki rolunu və nüfuzunu daha da artıracaq, beynəlxalq müstəvidə mövqelərimizi möhkəmləndirəcək, ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verəcək, qeyri-neft sektorunun və ixrac potensialımızın yüksəlişinə geniş imkanlar açacaq. Şübhəsiz, əldə olunan bütün müsbət nəticələrin əsasında Azərbaycan Prezidentinin hələ 2011-ci ildə ölkəmizin Qoşulmama Hərəkatına üzvlüyü ilə bağlı qəbul etdiyi strateji qərar dayanır. Hansı ki, bu qərar BMT Baş Assambleyasında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ölkələrin sırasını xeyli genişləndirdi, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar yaratdı. Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının Bakıda keçirilən Zirvə Görüşündə yekdilliklə Azərbaycanın quruma üç il müddətinə sədr seçilməsini dəstəkləməsi də, şübhəsiz ki, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin növbəti uğuru və dünyada ona bəslənən etimadın göstəricisidir.

Prezident İlham Əliyev dünya siyasətinin və gündəminin müəyyənləşdirilməsində mühüm rol oynayan beynəlxalq platformalardan istifadə edərək Azərbaycan həqiqətlərini dünyaya çatdırır, ölkəmizin haqlı mövqeyini müdafiə edən dövlətlərin sıralarının genişlənməsinə, Azərbaycanın qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq əməkdaşlıq məkanına çevrilməsinə nail olur, dövlətimizi addım-addım strateji hədəflərə yaxınlaşdırır. Amma xalqımızın milli maraqları üzərində qurulmuş bu siyasi kurs çox təəssüf ki, təkcə xaricdəki anti-Azərbaycan şəbəkənin, erməni lobbisinin və onun təsiri altında olan bəzi beynəlxalq qrupların deyil, həm də ölkə daxilində "milli demokrat" pərdəsinə bürünmüş bəzi radikal müxalif qrupların da müqaviməti ilə üzləşir. Hər dəfə ölkəmizdə keçirilən qlobal əhəmiyyətli tədbirlər ərəfəsində bu şəbəkə fəallaşır, cəmiyyətimizin sosial-siyasi nizamını ictimai müzakirə və fikir mübadiləsi müstəvisindən etiraz aksiyaları vasitəsilə küçələrə daşımağa, qəsdən qarşıdurma yaratmağa çalışır. Bu mənzərə 2012-ci ildə "Eurovision" musiqi müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları və digər mühüm beynəlxalq tədbirlər ərəfəsində də müşahidə olunmuşdur. Bu dəfə radikal müxalif qruplar Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünü hədəfə almış və neçə gündür ki, dövlətimizin strateji maraqlarına xidmət edən bu mühüm beynəlxalq siyasi hadisəni gözdən salmaq üçün dəridən-qabıqdan çıxırlar.

Müxalifətin apardığı kampaniyanın təhlili göstərir ki, Azərbaycan əleyhinə oxşar təbliğat yalnız Ermənistanın kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilir. Təbii ki, bu sıraya Ermənistanla və erməni diasporu ilə sıx əlaqədə olan xarici medianı də əlavə etsək, daha doğru olar. İndiki halda radikal qrupların həyata keçirdiyi insanlıqdan uzaq çirkin qarayaxma kampaniyasının tezisləri işğalçı ölkənin anti-Azərbaycan kampaniyasının ideoloji istiqamətləri ilə tam üst-üstə düşür. Sanki hər iki qütb vahid mərkəzdən idarə olunur, yaxud ortaq və razılaşdırılmış maraqlara uyğun hərəkət edir. Görünür, oktyabrın 19-da həyata keçirilən qanunsuz mitinq cəhdinin də əsas məqsədi təkcə hakimiyyəti nəyəsə məcbur etmək deyil, həm də ölkə daxilində vəziyyəti gərginləşdirərək, dövlət qurumlarını adekvat addımlar atmağa məcbur etmək və xaricdəki anti-Azərbaycan şəbəkənin hərəkətə gəlməsi üçün zəmin yaratmaqdan ibarət olub.

Düşünürəm ki, Zirvə görüşündən öncə radikal qrupların prosesə mane olmaq üçün atdığı addımlar, törətdikləri hüquqazidd hərəkətlər barədə təkrar fikir söyləməyə ehtiyac yoxdur. Lakin görünən odur ki, radikal müxalifətin xaricdən aldığı sifariş və təlimatlara uyğun formada prosesə mane olmaq cəhdləri iflasa uğradığına və xaricdəki şəbəkənin süni şəkildə ajiotaj yaratmaq səyləri heç bir nəticə vermədiyinə görə indi də onlar nəzarətlərində olan media və sosial şəbəkələr vasitəsilə bu mühüm siyasi tədbirə qarşı kampaniya təşkil etmək yolunu tutublar. Məqsədlərinə çatmaq üçün hətta tədbirdə iştirak edən dövlət və hökumət başçılarını məsxərəyə qoymaq kimi qeyri-etik, mənəviyyatsız addımlardan belə çəkinmirlər. Bu, radikal müxalifətin beynəlxalq hüquqdan, beynəlxalq münasibətlər sistemindən xəbərsiz, müasir siyasi düşüncədən uzaq, gerizəkalı, bəlkə də ibtidai icma təfəkkürünə malik olmasının əyani göstəricisidir. Müstəqil hüququn subyektlərini onların inkişaf səviyyələri, əraziləri, yaxud resurslarına görə məsxərəyə qoymaq məhz belə ibtidai icma təfəkkürünün nümunəsidir. Bu, ən yaxşı halda dövlətlər arasında hüquq bərabərliyinin qəbul və yaxud dərk edilməməsi, ən pis halda isə irqçi düşüncənin təzahürüdür. Radikal müxalifətin belə idbar təfəkkürünün fonunda Azərbaycan Prezidentinin nə qədər işıqlı zəkaya, milli və bəşəri dəyərlərə, humanizmə söykənən düşüncə tərzinə malik olduğu bir daha qabarıq və aydın nəzərə çarpır. Məhz bu aydın, işıqlı təfəkkür də Azərbaycanı gələcəyə, böyük qələbələrə doğru aparır.

Yenə də artıq bir neçə dəfə səsləndirdiyim fikri təkrarlamağa məcburam: biz bu bəsit və ziyanlı təfəkkürlə hərəkət edən müxalifətlə hara gedirik? Cəmiyyət daxilində səsini ucaltmağa, siyasi hakimiyyətə iddia etməyə çalışan bu antimilli qrupların özbaşınalığına nə vaxtadək dözməliyik? Artıq sağlam məntiqdən uzaq davranışlarla gündəmdə qalmağa çalışan, yeniləşə, müasirləşə bilməyən, dövlətçilik təfəkküründən və əxlaq normalarından uzaq radikal müxalif qrupların siyasi səhnədən getməsinin və konstruktiv düşüncənin önə çıxmasının zamanıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlardan müxalifət də öz payını götürməli, müasir Azərbaycana müasir azərbaycanlının gözü ilə baxmağa alışmalıdır".

## *Piter MAURER:* "Bakı Sammiti beynəlxalq humanitar yardımla bağlı müzakirələr aparmaq baxımından yaxşı imkandır"



"Rəhbərlik etdiyim təşkilat Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olmasa da, dünyada silahlı münaqişələr və digər fövqəladə hallar zamanı vəziyyətin yüngülləşdirilməsi, insanların həyatı və sağlamlığının qorunması ilə məşğul olan ən böyük humanitar qurumdur.

Hərəkatın Bakı Sammitində çoxsaylı ölkələrin nüfuzlu siyasi liderlərinin iştirakı beynəlxalq humanitar yardım sahəsində də müzakirələr aparmaq baxımından gözəl fürsətdir".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün iştirakçısı, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Piter Maurer deyib.

"Afrika, Yaxın Şərq və digər ölkələrdə silahlı münaqişələrin və zorakılığın artdığı bir dövrdə beynəlxalq hüquqa hörmət və insanlara humanitar yardım göstərilməsi bizim üçün çox vacibdir. Bugünkü tədbir həmin mövzunu Hərəkata üzv dövlətlərin rəhbərləri ilə müzakirə etmək və onların həlli yollarını tapmaq baxımından çox əhəmiyyətlidir" deyə BQXK-nın prezidenti əlavə edib.

## *Alvin BOTES:* "Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi onun beynəlxalq arenada növbəti uğurudur"



"Azərbaycanın növbəti üç ildə sədrlik edəcəyi Qoşulmama Hərəkatı kimi nüfuzlu təşkilatın Bakıda keçirilən XVIII Zirvə Görüşündə iştirak etməkdən çox məmnunuq.

Azərbaycan bu çoxtərəfli beynəlxalq təşkilata növbəti üç ildə sədrlik edəcək. Bu da ölkənizin beynəlxalq arenada daha bir uğurudur. Cənubi Afrika Respublikası Azərbaycanın Hərəkata sədrliyi dövründə çoxtərəfli əməkdaşlığın, üzv dövlətlərin suverenliyi və ərazi bütövlüyünün təmin olunması kimi məsələlərdə ölkənizə fəal dəstək verəcək".

Bu barədə AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak edən Cənubi Afrika Respublikasının Beynəlxalq Münasibətlər və Əməkdaşlıq nazirinin müavini Alvin Botes deyib.

"Azərbaycan Qoşulmama Hərəkatının Zirvə Görüşünü çox yüksək səviyyədə təşkil edib. İnanırıq ki, ölkəniz növbəti üç il ərzində təşkilatın sədrliyi çərçivəsində üzərinə düşən missiyanı uğurla həyata keçirəcək" deyə nazir müavini vurğulayıb.

## Rumıniyanın qabaqcıl KİV Qoşulmama Hərəkatı barədə məlumatlar yayıb

Rumıniyanın "Amosnews" xəbər agentliyi, "Ultima ora" ("Son saat") qəzeti, "News24hours" xəbər portalı AZƏRTAC-a istinadən Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü barədə məlumatlar yayıb, videolar paylaşıb.




Tədbirin mahiyyəti, məqsədi, tarixi, eləcə də iştirak edən nümayəndə heyətləri barədə geniş yazılar verilib. XVIII Zirvə Görüşünün beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rol oynadığı vurğulanıb. Qoşulmama Hərəkatının böyük beynəlxalq siyasi təşkilat olaraq, çoxtərəfli əməkdaşlığın əsas hərəkətverici qüvvələrindən biri olduğu bildirilib.

## *Misirin Xarici İşlər naziri:* "Azərbaycan Qoşulmama Hərəkatına əhəmiyyətli töhfələr verir"

"Qoşulmama Hərəkatı çoxsaylı dünya ölkələrinin yüksək səviyyəli nümayəndələrini bir araya gətirən beynəlxalq təşkilatdır.

Yarandığı gündən Bandunq Prinsiplərinə sadiq qalan bu Hərəkat dünyada sülh və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Müxtəlif çağırışlarla qarşılaşdığımız bir dönəmdə Hərəkata üzv olan bütün ölkələr bu prinsiplərə bütünlüklə əməl olunması üçün səyləri artırmalıdırlar. Azərbaycan bu təşkilatın fəal üzvü kimi onun əsas məqsədlərinə çatması işinə əhəmiyyətli töhfələr verir".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısında iştirak edən Misir Ərəb Respublikasının Xarici İşlər naziri Sameh Şükri deyib.

Xarici İşlər naziri bildirib ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının fəaliyyətinə daim öz dəstəyini göstərir. Təşkilata sədrlik Azərbaycana keçib. Prezidentinizin müdrik və uğurlu rəhbərliyi ilə nəinki təşkilata daxil olan ölkələr, həmçinin onların BMT Təhlükəsizlik Şurasının daimi üzvləri və Avropa İttifaqı dövlətləri ilə əməkdaşlıq əlaqələri daha da genişlənəcək.

"İnanırıq ki, Azərbaycanın təşkilata sədrliyi hərəkatın üzv dövlətləri arasında çoxtərəfli əməkdaşlığın inkişafı, eləcə də sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasının təşviqi sahəsində səylərin artırılmasına əlavə stimul verəcək" deyə nazir vurğulayıb.

# Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü

## Azərbaycan ilə Tanzaniya arasında əlaqələrin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb

Oktyabrın 26-da Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov Tanzaniyanın Baş Naziri Kassim Majaliva ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Əli Əhmədov Baş Nazir Kassim Majalivanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşündə iştirakının önəmini qeyd edib. Baş Nazirin müavini əminliyini bildirib ki, Qoşulmama Hərəkatının Azərbaycanın sədrliyi ilə bundan sonrakı fəaliyyəti üzv ölkələr arasında əməkdaşlığın inkişafına mühüm təsir göstərəcək.



Tanzaniyanın Baş Naziri Kassim Majaliva Azərbaycanı Qoşulmama Hərəkatına sədrlik etməsi münasibətilə təbrik edib. Zirvə Görüşünün yüksək səviyyədə təşkil edildiyini deyən Baş Nazir göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Baş Nazir deyib ki, Azərbaycanın bu cür mötəbər tədbirə evsahibliyi etməsi təqdirəlayiqdir. O, Qoşulmama Hərəkatına üzv ölkələr arasında əməkdaşlığın daha da genişlənəcəyinə inandığını söyləyib.

Görüşdə Azərbaycan ilə Tanzaniya arasında əlaqələrin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.

## Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları Milli Xalça Muzeyi ilə tanış olublar

Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının xanımları oktyabrın 26-da Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, qonaqlara xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyin, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, "qızıl fondu"nu xovlu xalçalar təşkil edən muzeyin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz məktəblərinin xalça nümunələri təqdim olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd edilib ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, qeyri-adi ekspozisiya zallarının quruluşu qonaqlarda xoş təəssürat yaradıb.

## Pakistan Prezidentinin xanımı Bakının görməli yerləri ilə tanış olub



Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak edən Pakistan Prezidenti Arif Alvinin xanımı Samina Alvi oktyabrın 26-da Bakı şəhərinin görməli yerləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, tanışlıq Dənizkənarı Milli Parkdan başlayıb. Pakistanın birinci xanımına Bakı Bulvarı haqqında məlumat verilib.

Sonra tanışlıq Yusif Səfərov küçəsi ilə davam edib. Burada qonaq Müasir İncəsənət Muzeyi ilə tanış olub.

Şəhər gəzintisi zamanı Samina Alvi Heydər Əliyev Mərkəzi, Muzey Mərkəzi, Alov Qüllələri Kompleksi, eləcə də Şəhidlər xiyabanının tarixi barədə məlumatlandırılıb.

Bakı şəhəri ilə tanışlıq qonaqda zəngin təəssürat yaradıb.

## Dünya mətbuatında Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə aktual beynəlxalq məsələlərin müzakirə edildiyi ön plana çıxarılıb

Dünya mətbuatında Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə aktual beynəlxalq məsələlərin müzakirə edildiyi ön plana çıxarılıb. Tədbirdə iştirak edən ölkələrin KİV-i dövlət və hökumət başçılarının çıxışlarında qlobal və regional problemlərin həlli ilə bağlı mühüm fikirlərə və təşəbbüslərə geniş yer ayırıblar.

Malayziyanın "Bernama" xəbər agentliyi ölkənin Baş Naziri Mahathir Bin Mohamadın Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevlə görüşündə tədbirin əhəmiyyəti barədə mülahizələrinə geniş yer ayırıb. Agentliyin xəbərində, həmçinin nüfuzlu "The Himalayan Times" qəzetinin məqaləsində Baş Nazirin "Petronas" şirkətinin Azərbaycan paytaxtındakı ofisini ziyarət etməsindən, Zirvə görüşündə çıxışından ətraflı bəhs edilir. Mahathir Bin Mohamad qeyd edib ki, 16 il əvvəl Qoşulmama Hərəkatının Zirvə Görüşü Kuala-Lumpurda keçirilib, Bakı isə bu əhəmiyyətli siyasi platformanı davam etdirərək təşkilata sədrlik edəcək.

Pakistanın "Daily Pakistan", "The Nation", "Daily Times" qəzetlərində bu ölkənin Prezidenti Arif Alvinin Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşü, həmçinin onun Zirvə görüşündəki çıxışına geniş yer verilib. Qeyd olunub ki, Pakistanın dövlət başçısının çıxışında Kəşmir məsələsi, Əfqanıstanda sülhün və sabitliyin bərqərar olması, habelə Yaxın Şərq problemi öz əksini tapıb, həmçinin regional münaqişələrin nizamlanmasında və qlobal məsələlərin həllində Qoşulmama Hərəkatının rolunun artırılmasının zəruriliyi vurğulanıb.

Kubanın ACN agentliyi ölkə Prezidenti Migel Diaz-Kanelin Zirvə görüşündə iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, həmçinin onun Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarəti, UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda gəzintisi barədə geniş reportaj yayıb. "Radio Habana" radiosunun saytında isə Bakıda keçirilən tədbirin əhəmiyyətindən bəhs olunur və Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçildiyi vurğulanır.

Nepalın "DD News" və "The Rising Nepal" saytlarında da Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü barədə videomateriallar yerləşdirilib. Bu ölkənin KİV-i Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olinin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, tədbirdə çıxışı haqqında dərc etdikləri materiallarda AZƏRTAC-ın xəbərlərinə də istinad ediblər. Qeyd olunub ki, Azərbaycan paytaxtında dünyanın 60-a yaxın ölkəsinin dövlət və hökumət başçılarının apardıqları müzakirələr qlobal və regional problemlərin həlli yollarının axtarılması baxımından böyük əhəmiyyət kəsb edir.

Əlcəzairin APS (Algeria Press Service) agentliyi bu ölkənin Prezidenti Abdelkader Bensalahın Azərbaycanın dövlət başçısı ilə görüşü haqqında ayrıca xəbər yayıb. Əlcəzairin dövlət başçısının Zirvə görüşündə çıxışı barədə materialda isə bildirilir ki, Prezident regional münaqişələrin dialoq və sülh yolu ilə, BMT-nin fundamental prinsipləri və beynəlxalq hüquq normalarına uyğun şəkildə həllinin vacibliyini vurğulayıb. O, həmçinin Qoşulmama Hərəkatının yeni dünya nizamının yaradılmasında daha səmərəli rol oynayacağına əminliyini ifadə edib.

Hindistanın "The Times of India" nəşri, PTI agentliyi bu ölkənin vitse-prezidenti Muppavarapu Venkaiah Naidunun başçılıq etdiyi nümayəndə heyətinin Zirvə görüşündə iştirakını geniş şəkildə işıqlandırıb. Qeyd olunub ki, rəsmi Dehli Qoşulmama Hərəkatına böyük əhəmiyyət verir və onun fəaliyyətində yaxından iştirak edir. "Rajya Sabha" və NDTV telekanallarında isə tədbirlə bağlı reportajlar yayımlanıb.

Əfqanıstanın "Tolo News" telekanalı və eyniadlı informasiya agentliyi bu ölkənin Prezidenti Məhəmməd Əşrəf Qaninin Azərbaycanın dövlət başçısı ilə görüşü və onun Zirvə görüşündə iştirakı barədə reportajlar yayıb. Qeyd olunub ki, əfqan liderin çıxışında dünyada siyasi və hərbi alyansların planları fonunda Qoşulmama Hərəkatının neytral və ədalətli mövqeyinin xalqların və ölkələrin suverenliyinin və ərazi bütövlüyünün təmin olunması kontekstində xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb.

Banqladeşin BSS agentliyi Qoşulmama Hərəkatının Zirvə Görüşü çərçivəsində ölkənin Baş Naziri Şeyx Hasinanın tədbir çərçivəsində Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşü, tədbirdə çıxışı haqqında xəbər yayıb.

Küveytin KUNA, Namibiyanın NAMPA, Liviyanın LANA, Misirin MENA, Mərakeşin "African-bulletin", Eritreyanın "Tesfa", İndoneziyanın "Antara", Banqladeşin UNB, Şri-Lankanın "Lanka Page" agentlikləri və bir çox nəşrlər və internet portalları öz ölkələrinin nümayəndə heyətlərinin Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə iştirakı barədə geniş xəbərlər yayıblar. Bundan başqa, tədbirdə iştirak edən dövlət və hökumət başçılarının, habelə yüksəkvəzifəli nümayəndələrin sosial şəbəkələrdəki səhifələrində də Zirvə görüşü haqqında məlumatlar və fotoşəkillər yerləşdirilib.

* * *

Bu günlər bütün dünyanın diqqətinin Azərbaycan paytaxtında keçirilən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə yönəldiyi bir məqamda Yaponiya Elm və Texnika Assosiasiyasının "J-Stage" portalında Azərbaycana həsr edilmiş analitik məqalə yer alıb.

AZƏRTAC xəbər verir ki, Avrasiya ölkələri üzrə mütəxəssis Manabu Şimizunun məqaləsi girişdən və 10 bölmədən ibarətdir. Məqalənin girişində müəllif Azərbaycanın coğrafi mövqeyi, müstəqillik tarixi haqqında ətraflı məlumat verir. Qeyd edir ki, müstəqilliyin əldə edilməsindən sonra bu ölkənin qarşılaşdığı geosiyasi problemlər çoxqatlı olması ilə diqqəti cəlb edir. Vurğulanır ki, 1918-ci ildə formalaşan Azərbaycan Demokratik Respublikası 1920-ci ildə yenidən işğala məruz qalıb. Müəllif Azərbaycanın Avropa və Asiya arasında yerləşdiyini və Yaxın Şərq ölkələri ilə geosiyasi münasibətlərə malik olduğunu xüsusi qeyd edir.

Müəllif müasir Azərbaycanı "balanslaşdırılmış diplomatiya" ölkələrinin tipik nümunəsi kimi təqdim edir. Vurğulayır ki, məhz Azərbaycanın balanslaşdırılmış siyasəti onu Qoşulmama Hərəkatında çox mühüm fiqura çevirir. Həm də ona növbəti dövr üçün həmin Hərəkata sədrlik etmək imkanı verir.

Qoşulmama Hərəkatının soyuq müharibə başa çatdıqdan sonra əhəmiyyətini itirəcəyi barədə düşünənlərin əksinə olaraq, inkişaf etməsinə diqqət çəkən müəllif hazırda bu təşkilatın sıralarında BMT üzvü olan dövlətlərin üçdəikisinin təmsil olunmasını xüsusi qeyd edir. Bu isə onu deməyə əsas verir ki, beynəlxalq siyasətdə Qoşulmama Hərəkatını nəzərə almamaq kobud səhvdir və ona yeni nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Bu perspektivin Azərbaycan diplomatiyasının üzərinə qoyulması isə həm Hərəkatın özü üçün, həm də indiki mərhələdə Azərbaycan üçün bir sınaq kimi baxılmalıdır.

Müəllif yazır ki, üzv dövlətlərin siyasi sistemlərinin və ABŞ ilə Avropaya münasibətlərinin fərqli olmasına baxmayaraq, Qoşulmama Hərəkatı çox vaxt Qərb qaydalarına qarşı müxalifliyi ifadə etmək imkanı yaratması ilə diqqəti cəlb edir. Bu forum dəyişən beynəlxalq qaydalara cavabın və tələbin ifadə mərkəzinə çevrilir. Belə ki, məhz Qoşulmama Hərəkatı 2017-ci ilin iyulunda nüvə silahının ləğvi Konvensiyasının əsas aparıcı qüvvəsinə çevrilib. Digər tərəfdən, buradakı üzv dövlətlərin əksəriyyəti uzun müddət müstəmləkə rejimində yaşayıb. Müəllif məqaləsində bu fonda "Azərbaycan diplomatiyası üçün Qoşulmama Hərəkatı nə deməkdir?" sualının cavabını verməyə çalışır.

Məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin fəsadları barədə ətraflı məlumat verilir, Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, Azərbaycanın daha yeddi rayonunun Ermənistan tərəfindən işğal edildiyi diqqətə çatdırılır.

Yazının "NATO və Azərbaycan" adlı bölməsində müəllif ölkəmizin bu beynəlxalq qurumla əməkdaşlığının müxtəlif aspektlərini təhlil edir.

Azərbaycan-İran münasibətlərindən bəhs olunan bölmədə iki ölkə arasındakı tarixi əlaqələrə diqqət yetirilir.

Məqalənin daha bir bölməsi yalnız Azərbaycan üçün deyil, eyni zamanda, Xəzər dənizi ətrafında yerləşən digər dövlətlər - Rusiya, İran, Qazaxıstan və Türkmənistan üçün mühüm əhəmiyyət kəsb edən məsələyə həsr olunub və "Xəzər dənizi üzrə razılaşmanın əhəmiyyəti" adlanır.

"İrana qarşı sanksiyalar və "Cənub qaz dəhlizi" adlı bölmədə ABŞ-ın İranın nüvə proqramının dayandırılması üzrə razılaşmadan çıxması və İrana qarşı iqtisadi sanksiyalar tətbiq etməsinin regiona təsiri ilə bağlı təhlil aparılır.

Məqalədə Azərbaycanın İsraillə siyasi, iqtisadi və hərbi sahələrdə əməkdaşlığından bəhs edən bölmə də yer alıb.

"Coğrafi şərtlər və Azərbaycanın inkişaf strategiyası" adlı növbəti bölmədə diqqət ölkəmizin öz üstün coğrafi mövqeyindən balanslaşdırılmış diplomatiyada bacarıqla istifadə etməsinə yönəldilir. Qeyd edilir ki, bu mövqe Azərbaycanı həm Şərq ilə Qərb, həm də Şimal ilə Cənub arasında mühüm dayaq mərkəzinə çevirir.

Məqalənin "Qoşulmama Hərəkatında mövqe hərəkəti" adlı bölməsi isə ölkəmizin xarici siyasətində Qoşulmama Hərəkatının yerinin müəyyənləşməsinə həsr olunub. Müasir dünyada soyuq müharibədən sonra yaranmış beynəlxalq vəziyyət təhlil edilərək Qoşulmama Hərəkatının rolunun artmasına xüsusi diqqət yetirilib. Qeyd edilir ki, Qoşulmama Hərəkatının əsas prinsipləri Azərbaycanın Dağlıq Qarabağ probleminin həlli üçün də mühüm imkanlar açır.

"Yaxın Şərq, keçmiş Sovet İttifaqı və Qoşulmama Hərəkatı" adlı bölmədə Hərəkatın tərkibi üzv dövlətlərin prinsiplərə uyğunluğu nöqteyi-nəzərindən təhlil edilir. Həmin prinsiplərin quruma yeni üzvlərin qoşulmasına şərait yaratdığı qeyd edilir.

Məqalənin sonunda Azərbaycanın balanslaşdırma diplomatiyasının Qoşulmama Hərəkatı üçün münasibliyi bir daha vurğulanaraq, onun sədrliyinin təşkilat üçün əhəmiyyətli olacağı bildirilir. Qeyd edilir ki, keçmiş Sovet İttifaqı respublikaları arasında Azərbaycanın ilk olaraq Qoşulmama Hərəkatına sədr seçilməsi bu hərəkata yeni mahiyyət verə bilər.

## Əlcəzair Prezidenti Abdelkader Bensalahın Azərbaycana səfəri başa çatıb

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelkader Bensalahın Azərbaycan Respublikasına səfəri oktyabrın 26-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, Prezident Abdelkader Bensalahı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.



## Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin Azərbaycana səfəri başa çatıb

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin Azərbaycan Respublikasına səfəri oktyabrın 26-da başa çatıb. AZƏRTAC xəbər verir ki, Prezident Məhəmməd Əşrəf Qanini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.

## Cibuti Prezidenti İsmail Ömər Qellehin Azərbaycana səfəri başa çatıb

Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qellehin Azərbaycan Respublikasına səfəri oktyabrın 26-da başa çatıb. AZƏRTAC xəbər verir ki, Prezident İsmail Ömər Qellehi Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.

## Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonun Azərbaycana səfəri başa çatıb

Oktyabrın 26-da Ekvatorial Qvineyanın Prezidenti Obiang Nguema Mbasogonun Azərbaycan Respublikasına səfəri başa çatıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Ekvatorial Qvineyanın Prezidentini Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və digər rəsmi şəxslər yola saldılar.



## Namibiya Prezidenti Haqe Qotfrid Qeynqobun Azərbaycana səfəri başa çatıb

Namibiya Respublikasının Prezidenti Haqe Qotfrid Qeynqobun Azərbaycan Respublikasına səfəri oktyabrın 26-da başa çatıb. AZƏRTAC xəbər verir ki, Prezident Haqe Qotfrid Qeynqobu Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Xarici İşlər nazirinin müavinləri Ramiz Həsənov, Nadir Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

## Qana Prezidenti Nana Akufo-Addonun Azərbaycana səfəri başa çatıb

Oktyabrın 26-da Qana Respublikasının Prezidenti Nana Akufo-Addonun Azərbaycan Respublikasına səfəri başa çatıb. AZƏRTAC xəbər verir ki, Prezident Nana Akufo-Addonu Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Təhsil naziri Ceyhun Bayramov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.

## Liviyanın Baş Naziri Faiz Saracın Azərbaycana səfəri başa çatıb

Liviyanın Baş Naziri Faiz Saracın Azərbaycana səfəri oktyabrın 26-da başa çatıb. AZƏRTAC xəbər verir ki, Baş Nazir Faiz Saracı Heydər Əliyev Beynəlxalq Aeroportunda İqtisadiyyat naziri Mikayıl Cabbarov və digər rəsmi şəxslər yola saldılar.

## Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadın Azərbaycana səfəri başa çatıb

Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadın Azərbaycana səfəri oktyabrın 26-da başa çatıb. AZƏRTAC xəbər verir ki, Baş Nazir Mahathir Bin Mohamadı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Təhsil naziri Ceyhun Bayramov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.

## Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhanın Azərbaycana səfəri başa çatıb

Sudan Respublikası Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhanın Azərbaycana səfəri oktyabrın 26-da başa çatıb. AZƏRTAC xəbər verir ki, Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhanı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.

## Pakistan Prezidenti Arif Alvinin Azərbaycana səfəri başa çatıb

Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin Azərbaycan Respublikasına səfəri oktyabrın 26-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Pakistan Prezidentini Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola saldılar.



# İslahatların intellektual mərhələsi başlayır

## İlham ƏLİYEV: “Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik?”

*Əvvəli 1-ci səh.*

Yol infrastrukturuna görə 27-ci yerdəyik. Biz keçən hesabatda 34-cü yerdə idik, indiki hesabatda 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Dəmir yollarının səviyyəsinə görə 34-cü yerdəyik. Nəqliyyat xidmətlərinin səmərəliliyinə görə 12-ci yerdəyik. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə biz dünyada ikinci yerdəyik”.

Bütün bunlar kifayət idi ki, hökumət qazandığı uğurları sərgiləməklə ötən dövrün yüksək göstəricilərinə nikbin yekun vursun və bütün görülən işlərdən yüksək məmnunluğunu ifadə etsin. Lakin dövlət başçısı bir qədər soyuqqanlı və eyni zamanda islahatlara sadiq lider kimi alqışlarsız ötüşməyə üstünlük vermiş, qarşıda daha çətin və daha mürəkkəb hədəflərin dayandığını bəyan etmişdir: “...biz islahatlara daha da böyük həvəslə, daha da böyük imkanlarla meyil göstəririk, bu islahatları aparırıq. Ancaq buna baxmayaraq, əlbəttə, bir daha demək istəyirəm ki, istifadə olunmayan kifayət qədər ehtiyatlar var və biz bu ehtiyatları aşkar etməliyik. Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Əlbəttə ki, bu məqsədə nail olmaq üçün korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalıdır”.

Azərbaycan Prezidenti müşavirədə, həmçinin korrupsiya hallarının geniş vüsət almasını bütün MDB məkanı üçün keçmişdən qalan acı miras olduğunu bildirmişdir. Tarixə nəzər salanda bu mirasın köklərinin həqiqətən də əsrlərin dərinliyinə, Azərbaycanın Rusiyanın tərkibinə qatıldığı illərə gedib çıxdığını görürük. XIX əsrdə korrupsiya Rusiyada elə artmışdı ki, onun mövcudluğunu hakim təbəqə açıq bildirdi. Rusiya imperatoru I Nikolay bir dəfə ürəkağrısı ilə gələcək çar II Aleksandra etiraf etmişdi ki, Rusiyada ikimizdən savayı, deyəsən, hamı oğurlayır. 1845-ci ildə Qafqaz valisi təyin edilən M.S.Voronstovun əsas vəzifəsi rus hərbi administrasiyasını rüşvətdən təmizləmək idi. Gilyarovckiy isə “Mockva və moskvalılar” kitabında məmurların miskin maaş aldıqlarına görə ucdantutma rüşvətə qurşandıqlarını yazırdı. Kimi göyərti ilə, kimi ət, yumurta ilə, kimi də qiymətli hədiyyələrlə, yəni hər kəs vəzifəsinə uyğun rüşvət alırdı. Sovet dönəmində dilə-dişə düşən, korrupsiyada adı hallanan nədənsə mərkəz yox, Qafqaz respublikaları idi. Amma “acı mirasın” kökləri uzaq keçmişdən başlayırdı.

Bu gün Azərbaycanda bu mirasın haradan gəlməsinə fikir vermədən sosial bəla kimi onun fəsadları ilə mübarizə aparılır. Əhalinin sosial durumunun yaxşılaşdırılması, dövlət qulluqçularının və büdcədən maliyyəşən digər qurumların əməkdaşlarının yüksək maaşla, təqaüdlərlə təmin edilməsində məqsədlərdən biri də belə halların qarşısının maksimum alınmasıdır. “ASAN xidmət”in yaradılması, vergidən yayınma hallarının azaldılması üçün vacib yeniliklərin tətbiq edilməsi bu mirasa qarşı mübarizə üsullarındandır.

Korrupsiya hallarının qarşısının alınması üçün dövlət başçısı təkcə hüquq mühafizə orqanlarını yox, bütün aidiyyəti qurumları, o cümlədən hər bir vətəndaşı mübarizəyə səsləyir: “Vətəndaşlar da öz növbəsində məlumat verməlidirlər, ictimai nəzarət baxımından daha da fəal olmalıdırlar ki, biz islahatları aparaq və ölkəmizin qüdrətini artıraq”. Beləliklə, biz ölkənin siyasi həyatında islahatlara köklənən yeni təfəkkürün formalaşmasına dövlət başcısının çağırışını eşidirik. Nazirlər Kabinetinin rəhbəri dəyişdirilmiş və onun qarşısında islahatların həyata keçirilməsinin davamlı təmin edilməsi ciddi tapşırıq kimi qoyulmuşdur. İslahatların aparılması, kadr islahatlarının həyata keçirilməsi Baş Nazirin ümdə vəzifəsi kimi müəyyən edilmişdir.

Kadrların - insan resurslarının düzgün seçilib təyin edilməsi və irəli çəkilməsi dövlət quruculuğunun ana xəttini təyin edir. Ulu Öndər hələ ötən əsrin 70-ci illərindən başlayaraq minlərlə savadlı, bilikli orta məktəb məzunlarını keçmiş Sovet İttifaqının nüfuzlu ali təhsil müəssisələrinə oxumağa göndərəndə kadr potensialını düşünürdü. Onlardan Rusiyada qalıb böyük vəzifələrə yüksələnlər də oldu, vətənə qayıdıb respublika iqtisadiyyatında önəmli rol oynayanlar da.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin kadr məsələsini önə çəkməsi günün tələbindən irəli gəlir: “Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik? Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət yolu ilə gedə bilərik? Düzdür, islahatlar aparılır, dediyim rəqəmlər bunun əyani sübutudur. Hər bir ölkə bu nəticələrlə öyünə bilər. Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və Vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük”.

İndi bütün dünyada insan resurslarının idarə olunması, yeni kadrların, xüsusi istedadların və intellektual mülkiyyət sahiblərinin üzə çıxarılıb irəli çəkilməsi ən vacib və ən ciddi məsələdir. Böyük korporasiyalar və nəhəng şirkətlər hətta bu məsələdə iqtisadi kəşfiyyat aparır, dünyanın istənilən nöqtəsindən onlara lazım olan mütəxəssisləri çağırır və onlara yaradıcılıq üçün istənilən şəraiti yaradırlar. Biz ölkə iqtisadiyyatının müxtəlif sahələrini inkişaf etdiririk, aqrar sektor diqqət mərkəzindədir. Bunlar hamısı islahatların tərkib hissəsidir. Bu baxımdan dövlət başçısının israrla yeni kadrlara önəm verdiyini anlamaq üçün bir neçə faktı nəzərdən keçirmək yerinə düşərdi.

Dünyada 30 yaşınadək milyarder olan ən gənc, uğurlu və istedadlı iş adamlarından biri Kayli Cennerdir. O, ən gənc milyarderdir. Gənc qadının qəfil varlanmasını qısqanclıqla qarşılayanlar olsa da, fakt faktlığında qalır. Onun milyardı valideynlərindən qalan miras yox, əlinin qabarı, intellektinin bəhəridir. Mark Zukerberq, Evan Şpiqel də artıq 30 yaşlarında milyarder idilər. Larri Peyc, Bill Qeyts isə 31 yaşında milyarder olublar. Lakin burada fikir verilәsi ciddi bir məqam ondan ibarətdir ki, bu milyarderlərin əksəriyyəti sərvətlərini sənayedə və aqrar sektorda qazanmayıblar. Serqey Brin ABŞ-a Rusiyadan köçüb, 2004-cü ildə varidatı 27 milyard dollar idi. O, “Alphabet” texnoloji nəhəngin prezidentidir. Elizabet Holms “Theranos”un yaradıcısı və baş direktorudur. 2014-ci ildə qanın analizi startapına görə 30 milyarda sahib idi. Bu il Eduardo Saverinin sərvəti 36 yaşında 131 milyard dollar olub. Gəlir mənbəyi “Facebook”dur. Patrik Kollison 30 yaşında 2,1 milyardın sahibi idi. Onlayn ödəmələr şirkətini yaradıb. Bobbi Merfi 27 yaşında milyarder olub. “Snapchat” sosial şəbəkələrinin yaradıcısıdır. Mark Zukerberqin 64,2 milyardı var. “Facebook” yaradıcılarından biri və baş direktorudur. Yəni son illərin qazanc mənbələri virtual aləm, sosial şəbəkələr və yeni texnologiyalarla bağlıdır. Axı bizdə də belə mütəxəssislər yetişir və təəssüf ki, onların bir qismini göz qırpımında ölkədən çəkib aparırlar.

Ulu Öndərin bir ifadəsi yada düşür: “Azərbaycanın neft kimi sərvəti var”. Bu gün islahatların məzmununu dərinləşdirən, intellektual tutumuna güc verən Prezident İlham Əliyevin kadr islahatlarını dövlətin iqtisadi siyasətinin bünövrəsi kimi dəyərləndirməsi ölkə iqtisadiyyatının bütün sahələrində özünü göstərir. Söhbət istedadların yetişdirilib üzə çıxarılmasından gedir.

Yeni kadrların hazırlanması ilə yanaşı, intellektual mülkiyyətin qorunması, onun müdafiəsi proqramlarının da hazırlanması vacibdir. Bu, çətin bir işdir, amma vacibdir. Ona görə vacibdir ki, dövlət başçısının dediyi kimi: “Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik?”

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# İqtisadiyyatın şaxələndirilməsi daha sürətlə davam etməlidir

## Bu, Prezidentin iqtisadi müşavirədəki qəti tələbidir

*Əvvəli 1-ci səh.*

Bu, onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər”.



Kənd təsərrüfatının inkişafı xüsusi önəm daşıyır. Mübaliğəsiz demək olar ki, kənd ölkənin çörək təknəsidir. Ərzaq təhlükəsizliyinin yaranmasında aqrar sektorun inkişafının rolu misilsizdir. Prezident İlham Əliyev Azərbaycan kəndində illərlə, əsrlərlə yetişdirilən, sonralar unudulan kənd təsərrüfatı məhsullarının əkin-biçinini bərpa etdi. Bununla da kəndə yeni həyat gətirdi. Pambıqçılıqda qısa müddətdə irəliləyiş əldə olundu. Yeni üzüm plantasiyaları salındı. Fındıq, xurma bağları yenidən canlandı. Çay plantasiyaları, sitrus bağları əvvəlki görkəmini aldı. Buğda, arpa, qarğıdalı, çəltik artdı.

Azərbaycanın kəndli və fermerləri cari ildə də sahələrdən bol məhsul toplayıblar. Bu, rəqəmlərdə də öz əksini tapır. İlin ilk doqquz ayında kənd təsərrüfatında artım 7 faizdən çox olub və həmin rəqəm sözügedən müşavirədə qeyd edilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, sentyabr ayının 1-nə kimi dənlilərin və dənli paxlalı bitkilərin əsas sahəsi biçilib və həmin sahələrdən 3 milyon 229 min ton məhsul götürülüb. Bu da keçən ilin müvafiq dövründəkindən 6,3 faiz çoxdur. Tərəvəz, kartof, bostan bitkiləri, meyvə və giləmeyvə, üzüm, günəbaxan sahələrindən ötən ilin eyni dövrünə nisbətən çox məhsul toplanıb.

Ölkədə pambıq, tütün, barama istehsalının artımına yönəldilən tədbirlər emal sənayesinin inkişafına təkan verir. Bu isə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində yaranan imkanları genişləndirir. Son illərdə yaradılmış aqroparkları, əyiricilik və toxuculuq sex və sahələrini, meyvə və tərəvəzdən müxtəlif məhsullar hazırlayan emal müəssisələrini buna misal göstərmək olar.

Azərbaycan neftdən, qazdan əldə olunan gəlirləri nəqliyyat sektorunun inkişafına da yönəltdi. Bunun da nəticəsində ölkəmiz nəinki bölgədə, bütün Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilir. Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi bu istiqamətdə atılmış mühüm addımdır. Bu tarixi layihənin gerçəkləşməsi Azərbaycanın ərazisindən böyük həcmdə yüklərin Şərqdən Qərbə, Qərbdən Şərqə göndərilməsinə imkan verir. Bu, həm də ölkəmizin geosiyasi əhəmiyyətinin artması, daha bir davamlı qazanc mənbəyinin olması deməkdir.

“Şimal-Cənub nəqliyyat dəhlizi”nin yaradılması da böyük önəm daşıyır. Bu istiqamətdə də dəyərli işlər görülüb. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı artıq 10-dan çoxdur və getdikcə daha da artacaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşması, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikilməsi, minlərlə kilometr yeni avtomobil yolunun çəkilməsi son illərdə görülmüş möhtəşəm işlərdir və onlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə, nəticə etibarilə inkişafına xidmət edir.

Xalçaçılığın ölkə sənayesində əhəmiyyətli yer alması da iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlardandır. “Azərxalça” ASC-nin istifadəyə verilən filiallarında yüzlərlə insan, əsasən qadınlar işlə təmin olunub. Onlar toxuduqları xalçalarla həm qədim el sənətini yaşadır, həm öz dolanışıqlarını təmin edir, həm də Azərbaycan məhsulunun ixrac potensialını artırırlar.

İndiyədək Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdamda təzə xalça müəssisələri istifadəyə verilib.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev demişdir: “Biz son vaxtlar ənənəvi xalçaçılıq sənətinin inkişafı ilə bağlı çox ciddi iş aparırıq. Artıq 20 xalça fabriki fəaliyyətdədir. Hər fabrikdə orta hesabla 100, yaxud 150 iş yeri yaradılır, xüsusilə qadınlar üçün. Mən fabriklərin əksəriyyətinin açılışlarında iştirak etmişəm və görmüşəm ki, buna nə qədər böyük ehtiyac var. Bu, qadınları işlə təmin etmək, qədim milli sənətimizi yaşatmaq üçün çox düşünülmüş bir addımdır. Bütövlükdə isə bizdə 31 xalça fabrikinin tikilməsi nəzərdə tutulur və burada təqribən 5 minə yaxın iş yeri açılacaq”.

Xalçaçılıq inkişaf etdikcə yeni köməkçi müəssisələrin, məsələn, iplik və hazır tekstil, yunəyirici-boyaq fabriklərinin, yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin fəaliyyətə başlamasına ehtiyac yaranır.

“Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir... Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər. Neftdən əldə edilmiş gəlirlər ölkə iqtisadiyyatının inkişafında istifadə olundu. Biz bunu o istiqamətə yönəltdik. İnfrastruktur tamamilə yeniləndi”. Bu sözləri Prezident İlham Əliyev sentyabrın 20-də “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdəki nitqində deyib. Dövlət başçısı ölkədə qazlaşdırmanın 96 faizə çatdığını, 3000 meqavata yaxın yeni generasiya güclərinin yaradıldığını, 3200-dən çox məktəb binasının tikildiyini, yaxud təmir olunduğunu, yeni rəvan yollar çəkildiyini inkişaf və tərəqqiyə xidmət edən faktlar kimi göstərib. Bütün bunlar birbaşa, yaxud dolayısı ilə ölkə iqtisadiyyatının şaxələndirilməsinə və güclənməsinə təkan verir. Məsələn, istər kəndarası, istərsə də magistral yollar ölkədə aqrar sektorun, turizmin və iqtisadiyyatın digər sahələrinin inkişafına xidmət edir.

Azərbaycan dövlətinin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər ardıcıl xarakter daşıyır. Bu, oktyabrın 15-də Prezidentin yanında keçirilən iqtisadi müşavirədə də qeyd edilib. Dövlət başçısı bu barədə deyib: “Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# “Doing Business” Azərbaycanın ən islahatçı ölkələrdən olmasını bir daha təsdiqlədi

*Əvvəli 1-ci səh.*

Belə ki, Azərbaycan biznesə başlama üzrə 9-cu, tikinti üçün icazələrin alınması üzrə 59-cu, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə 80-ci, əmlakın qeydiyyatı üzrə 44-cü, kreditlərin alınması üzrə birinci, kiçik investorların hüquqlarının müdafiəsi üzrə 105-ci, vergilərin ödənilməsi üzrə 40-cı, sərhəddə ticarət üzrə 83-cü, müqavilələrin icrası üzrə 28-ci və müflisləşmənin həlli indikatoru üzrə 47-ci yerdədir.

Ekspertlər belə hesab edirlər ki, “Doing Business 2020” hesabatında Azərbaycanın öncül mövqeyi birbaşa dövlət başçısının şəxsi islahatçı lider keyfiyyətləri ilə bağlıdır. Adətən islahatlarda irəli gedən ölkədə müəyyən mərhələdən sonra sakitlik müşahidə olunur, iqtisadi həyat adi axarına düşür. Amma Azərbaycanda əksinədir. Ötən ilin mayından bu ilin mayınadək olan dövrdə həyata keçirilən islahatlar daha genişmiqyaslı və kompleks xarakterli olduğundan heç kimin diqqətindən yayınmadı. Ona görə yayınmadı ki, bu mərhələdə keçirilən bütün islahatların qayəsində insan amilinə xidmət, sosial məsələlər və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması dayanırdı. Və ya iqtisadçı dili ilə desək, one-stop shop modelindən non-stop shop modelinə və reaktiv yanaşmadan proaktiv yanaşmaya keçidin təmin edilməsi önə çəkildi.

Ekspert Nərmin Kazımlı qeyd edir ki, Azərbaycanın “Doing Business 2020” hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Kompleks biznes islahatları çərçivəsində “Daşınar əmlakın yüklülüyü haqqında” qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklər ilə uyğunlaşdırmaların aparılması öz töhfəsini verib. Beləliklə, son dəyişikliklər nəticəsində aparılan sadələşdirmələr nəticəsində daşınar əmlakın bir kateqoriyasının ümumi formada təsvirinin verilməsinin, gələcəkdə əldə ediləcək əmlakın yüklü edilməsinin və əsas öhdəliyin maksimal ölçüsünün göstərilməsinin mümkünlüyünə icazə verilir. Azərbaycan kreditlərin əlçatanlığı göstəricisi üzrə 190 ölkə arasında birincidir. Əmlakın qeydiyyatı sahəsində islahatlar aparmaq üçün “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda və Nazirlər Kabinetinin 134 və 453 nömrəli qərarlarında müvafiq dəyişikliklər edilib. Bu sahədə aparılan islahatlar nəticəsində əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən çıxarış elektron qaydada verilir. Əmlakını rəsmi qeydiyyata almaq istəyən şəxs müvafiq olaraq müraciət etdikdə çıxarışlar 1, 3, 7 və 10 iş günündə hazırlanır.

Nəzərə çatdıraq ki, bütün bunlardan başqa daşınmaz əmlakın kadastrı və qeydiyyatı ilə bağlı müstəqil və xüsusi müraciət mexanizmləri yaradılmış, Əmlak Xidmətləri Mərkəzinin istifadəyə verilməsi ilə bütün xidmətlər “bir pəncərə” sistemi ilə təşkil edilmişdir. Eyni zamanda kiçik investorların hüquqlarının müdafiəsi ilə əlaqəli olaraq “Mülki Məcəlləyə” və “Mülki Prosessual Məcəllə”yə bir sıra dəyişikliklər edilmiş, müqavilələrin icrası göstəricisi üzrə isə kompleks biznes islahatları çərçivəsində ədalət mühakiməsinin daha da təkmilləşdirilməsi məqsədilə məhkəmə-hüquq islahatları aparılmışdır.

Ekspertlər və iqtisadçılar hesab edirlər ki, dövlət başçısının apardığı son islahatlar dünyanın aparıcı iqtisadçılarının, bir sıra nüfuzlu beynəlxalq reytinq agentliklərinin diqqət mərkəzindədir. Prezident İlham Əliyev son qərarları ilə faktiki olaraq ölkədə aparılan islahatlara yeni nəfəs vermiş, kadrların düzgün yerləşdirilməsi və intellektual mülkiyyətin daha faydalı istifadəsi üçün qətiyyətli addımlar atmışdır. Onun islahatçı lider kimi gücü ondadır ki, çəkinmədən və qətiyyətlə islahatların fərqli bir mərhələsinə start verdi, ölkə üçün daha faydalı, daha enerjili və daha müasir biliklərə və təcrübəyə malik olan gənc kadrların dövlət strukturlarında və biznesin müxtəlif sahələrində irəliləməsinin zəruriliyini tələb kimi ortaya qoydu.

Belə radikal və bir çoxları üçün gözlənilməz olan qətiyyətli islahatçı addımların atılması ölkəni yeni uğurlara səmtləndirməklə yanaşı, yəqin ki, bir sıra beynəlxalq sorğu agentliklərinin və o cümlədən “Doing Business”in növbəti hesabatlarında əksini tapacaq.

***B.İMANQULİYEV,***
***“Azərbaycan”***

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN NOYABR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 6 |
| **Bahar Əvəz qızı MURADOVA**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 15 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 21 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 5 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 4 |
| **Hadi Musa oğlu RƏCƏBLİ**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 18 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 21 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 20 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 25 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 8 |
| **Ülvi Zahid oğlu QULİYEV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 28 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 20 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 6 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 25 |
| **Səfa Abbas oğlu MİRZƏYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 5 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 12 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 19 |
| **Nizami Abdulla oğlu SƏFƏROV**<br>Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 12 |
| **Adilə Ziyat qızı ABASOVA**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 26 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 5 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18:00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

| | |
|---|---|
| **Telefonlar:** | (012) 510-99-38 |
| | (012) 510-89-14 |
| | (012) 492-74-05 |

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

## Hər canlının öz "sevgisi" var




Foto Ağaəli MƏMMƏDOVUNDUR

---

### "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti su daşınması üçün bir ədəd xüsusi təyinatlı nəqliyyat vasitəsinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: Su daşınması üçün bir ədəd xüsusi təyinatlı nəqliyyat vasitəsinin satın alınması.**

Müqavilənin icra müddəti **23 dekabr 2019-cu il** tarixinə kimi müəyyən edilir.

Tender iştirakçıları **https://etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **19 noyabr 2019-cu il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **26 noyabr 2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **28 noyabr 2019-cu il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## Yaponiyada səkkiz nəfəri sel apardı



Yaponiyada leysan yağışları nəticəsində səkkiz nəfər həlak olmuşdur. Bu barədə "Kyodo" agentliyi xəbər verir.

Meyitlər Tokio ilə həmsərhəd olan Tiba prefekturasında aşkar edilmişdir.

Axtarış-xilasetmə əməliyyatı davam edir.

Meteoroloqların dediyinə görə, təkcə İçixara şəhərində 12 saat ərzində 280 millimetrdən çox yağıntı düşmüşdür. Bu, oktyabr üçün orta aylıq normadan çoxdur.

Təyyarə reyslərinin ləğv olunması üzündən 3 min nəfərdən çox adam Narita hava limanında gecələməli olmuşdur.

## Rusiyada əsgər 8 xidmət yoldaşını güllələdi



Zabaykalye diyarında Rusiya ordusu əsgərinin açdığı atəş nəticəsində 8 hərbi qulluqçu həlak olmuş, 2 nəfər yaralanmışdır. Ölənlərin ikisi zabitdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Hadisə hərbi hissədə qarovul növbəsi dəyişərkən baş vermişdir. Xidmət yoldaşlarına atəş açmış əsgər saxlanmışdır. Yaralılar hərbi hospitala çatdırılmışdır. Onların həyatı üçün təhlükə yoxdur.

Hadisəni təhqiq etmək üçün Zabaykalye diyarına Müdafiə Nazirliyinin komissiyası, habelə Hərbi Prokurorluğun əməkdaşları göndərilmişdir. Rusiyanın İstintaq Komitəsi cinayət işi açmışdır.

## Braziliya Boliviyada seçkilərin nəticələrini tanımır



Boliviyada keçirilmiş prezident seçkilərinin nəticələri Amerika Dövlətləri Təşkilatı (ADT) tərəfindən yoxlanılmayana kimi Braziliya onları tanımayacaq. Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, "Braziliya ADT ilə Boliviya hökuməti arasında bu ölkədə keçirilmiş seçkilərin birinci turunun tam yoxlanılması məsələsi barədə davam edən danışıqları nəzərə alaraq hazırda yekun nəticələri tanımır".

Bundan əvvəl Boliviya Ali Seçki Məhkəməsinin sədri Euheniya Çoke Avropa İttifaqı və ADT-nin nümayəndələrini, habelə Boliviya vətəndaşlarını seçkilərdə verilmiş səslərin nəticələrini yoxlamağa dəvət etmişdi.

Seçki komissiyasının məlumatına əsasən, Morales 47,07 faiz səs, onun ən yaxın rəqibi Karlos Mesa 36,51 faiz səs toplamışlar. Namizədlər arasında fərq 10,56 faiz təşkil edir. Əgər bu fərq 10 faizdən az olsaydı, seçkilərin ikinci turu keçiriləcəkdi.

Bu nəticələr elan olunduqdan sonra Boliviyada etiraz nümayişləri başlamışdır. Morales ölkədə fövqəladə vəziyyət elan etmiş və müxalifəti dövlət çevrilişi cəhdində suçlamışdır. Mesa rəqibinin birinci turda qələbəsini tanımadığını bildirmişdir.

## İraqda iğtişaşlar zamanı 42 nəfər həlak oldu

İraqda hökumət əleyhinə keçirilən növbəti etiraz aksiyaları nəticəsində azı 42 nəfər öldürülmüş, təxminən 1800 nəfər yaralanmışdır. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Ölənlər arasında 25 etirazçı, xüsusi xidmət orqanlarının əməkdaşı və silahlı qruplaşmanın üzvü var. Bundan əlavə, güc strukturlarının 68 nümayəndəsi yaralanmışdır. Etirazlar yüksək işsizlik, korrupsiya və Baş Nazir Adil Abdulmehdi hökumətinin idarəetmədə yol verdiyi nöqsanlara qarşıdır.

Bu arada ölkənin dini lideri, 89 yaşlı Ayətulla Əli Sistani nümayişçiləri və hakimiyyət nümayəndələrini dinc dialoqa çağırmışdır.



## Böyük Britaniyada aşkarlanan 39 cəsədin arasında vyetnamlılar da var

Böyük Britaniyanın Esseks qraflığında yük maşınında aşkarlanan 39 cəsədin ən az üçünün Vyetnam vətəndaşlarına aid olduğu güman edilir.

Çindən Böyük Britaniyaya yollanan vyetnamlıların yaxınları faciənin baş verdiyi gündən bəri onlarla əlaqə yarada bilmədiklərini deyiblər. Belə ki, 26 yaşlı Fam Thi Ça Mi avtomobilin Purflit şəhərinə çatmasından iki saat öncə valideynlərinə səfərinin uğursuz alındığını, nəfəs ala bilmədiyini və öləcəyini yazıb. Qızın qardaşının sözlərinə görə, bacısı Böyük Britaniyaya getmək üçün 30 min funt sterlinq (38 min dollar) ödədiyini bildirib. Səfərin təşkilatçıları qıza telefon zənglərinə cavab verməməyi tapşırıb.

Bundan başqa, Vyetnamdan olan 26 yaşlı kişi və 19 yaşlı qızın da qohumları ilə əlaqəyə girmədiyi bildirilir. Sonuncu qohumlarından ona zəng etməməyi xahiş edib, telefonu söndürüb və bir daha əlaqəyə çıxmayıb. Xatırladaq ki, oktyabrın 23-də Britaniyanın Esseks qraflığının polisləri konteynerdə 39 cəsəd aşkarlayıb. Cəsədlərin tapıldığı refrijeratorun Purflitə Belçikanın Zebrügge şəhərindən, yük avtomobilinin isə Şimali İrlandiyadan gəldiyi məlum olub. Əvvəlcə cinayət işi ilə əlaqədar yük maşınının sürücüsü, sonradan isə daha üç şübhəli saxlanılıb.

İlkin məlumata görə, 31 kişi və 8 qadın donaraq ölüb. Cəsədlərin aşkar edildiyi refrijeratorda temperatur mənfi 25 dərəcə olub.

---

## Azərbaycanın Gənclər və İdman naziri Avropa Olimpiya Komitələrinin 48-ci Baş Assambleyasında çıxış edib

Varşavada səfərdə olan Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov Avropa Olimpiya Komitələrinin (AOK) 48-ci Baş Assambleyasında çıxış edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax, AOK-un prezidenti Yanes Kosyançiçin də qatıldıqları tədbirdə A.Rəhimov çıxışında bir neçə mühüm məsələyə toxunub.

Bu ilin iyulunda Bakıda keçirilmiş XV Avropa Gənclər Yay Olimpiya Festivalı haqqında danışan nazir ölkəmizin bu yarışa hazırlığı, görülmüş işlər, təşkilati məsələlər və ümumilikdə bir sıra istiqamətlər haqqında məlumat verib. A.Rəhimov vurğulayıb ki, Avropanın 48 ölkəsindən 2613 ən güclü idmançının qatıldığı yarış 26 ölkədən 346 jurnalist tərəfindən işıqlandırılıb. Yerli və beynəlxalq texniki heyətlərin 763 üzvü Oyunların təşkilinə cəlb olunub. On iki arena yarışların keçirilməsi üçün bütün standartlara cavab verib. Beş yüz azərbaycanlı peşəkar Oyunların ərsəyə gəlməsində müstəsna rol oynayıb.



Sonra ölkəmizin idman siyasətindən, bu istiqamətdə atılan addımlardan söz açan nazir Azərbaycanda ötən illər ərzində uğurla həyata keçirilmiş idman yarışları, bu turnirlərə tamaşaçı marağı, arenaların fəaliyyəti, idman siyasəti və digər mühüm məsələlərdən danışıb. Könüllülük hərəkatının da Azərbaycanda geniş vüsət aldığını diqqətə çatdıran A.Rəhimov hazırda təkcə idman yarışlarında deyil, digər tədbirlərdə də könüllülərin aparıcı qüvvə olduğunu söyləyib. Bildirib ki, Avropa Gənclər Yay Olimpiya Festivalında 2500 könüllünün iştirakı nəzərdə tutulsa da, bu rəqəm artaraq 3500 olub.

Səfəri çərçivəsində A.Rəhimov BOK, AOK və digər mötəbər qurumların rəhbər şəxsləri ilə də görüşlər keçirib.

## Çingiz Hüseynzadə AOK-un Olimpiya Oyunları Komissiyasının sədri seçilib

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Avropa Olimpiya Komitəsinin (AOK) Varşavada keçirilən Baş Assambleyasında bu qurumun Olimpiya Oyunları Komissiyasının sədri seçilib.

MOK-dan AZƏRTAC-a bildiriblər ki, tədbirdə Polşa Olimpiya Komitəsinin 100 illik yubileyi qeyd olunub. Yubiley münasibətilə MOK-un vitse-prezidenti Ç.Hüseynzadə və baş katibin müavini Azər Əliyev xatirə hədiyyələri təqdim ediblər.




Assambleyada AOK-un Olimpiya Oyunları, Avropa Gənclər Festivalı, Atletlər, Olimpiya mədəniyyəti və irs, Olimpiya Akademiyası və digər komissiyalarının iclasları keçirilib. Baş Assambleyada Ç.Hüseynzadə Olimpiya Oyunları Komissiyasının sədri seçilib.

Həmçinin "Tokio 2020", "Paris 2024" Yay, "Pekin 2022" Qış Olimpiya oyunlarının, 2023-cü ildə Krakov və Malopolskada təşkil olunacaq III Avropa Oyunlarının hazırlıq işlərinə dair hesabat məruzələri dinlənilib.

## Astarada yubiley tədbiri keçirilmişdir

Prezident İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncamına uyğun olaraq bütün respublikada olduğu kimi, Astara rayonunda da ilboyu silsilə tədbirlər keçirilmişdir.



Müxtəlif idman növləri üzrə yarışlar, ədəbi-bədii gecələr, Astara Pedaqoji Kollecində və ümumtəhsil məktəblərində inşa, bədii qiraət, rəsm müsabiqələri təşkil edilmiş, qaliblər mükafatlandırılmışlar. Bu tədbirlərin davamı olaraq rayonun Dənizkənarı park-bulvar kompleksində Azərbaycan poeziyası tarixində fəlsəfi şeirin ilk böyük nümayəndəsi olan İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Məndə sığar iki cahan" adlı musiqili ədəbi-bədii kompozisiya keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev, hüquq mühafizə orqanlarının, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri və kollektivi, ictimaiyyət nümayəndələri, tələbələr, ümumtəhsil məktəblərinin müəllim və şagirdləri iştirak etmişlər.

Astara Pedaqoji Kollecinin tələbələrinin, rayonun ümumtəhsil məktəblərinin şagirdlərinin və Lənkəran Dövlət Dram Teatrının aktyorlarının ifasında böyük şairin qəzəlləri dinlənilmiş, Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivinin üzvləri şairin qəzəllərindən ibarət muğam parçaları səsləndirmişlər.

İştirakçılar tədbiri böyük maraqla izləmiş, şairin yaradıcılığından bəhs edən sərgidən, şeir-sənət məclisindən zövq aldıqlarını bildirərək təşkilatçılara minnətdarlıq etmişlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

---

### "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti İçəri şəhər ərazisində Kiçik Qala, 19 ünvanında daşdan səkinin və Böyük Qala, 42/19, Kiçik Qala, 19 ünvanlarında yeraltı güc kabellərinin təmiri işlərinin satın alınması üçün

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: İçəri şəhər ərazisində Kiçik Qala, 19 ünvanında daşdan səkinin və Böyük Qala, 42/19, Kiçik Qala, 19 ünvanlarında yeraltı güc kabellərinin təmiri işləri**

Müqavilənin icra müddəti **23 dekabr 2019-cu il** tarixinə kimi müəyyən edilir.

Tender iştirakçıları **https://etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **20 noyabr 2019-cu il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **28 noyabr 2019-cu il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **29 noyabr 2019-cu il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Elçin Bağırova anası

**ELBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Əziz Əzizov Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı Qadınlar Şurasının sədri

**TAMİLLA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8967
Sifariş 3542
Qiyməti 40 qəpik